**AZƏRBAYCAN RESPUBLIKASI TƏHSIL NAZIRLIYI**
**SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNİN NƏZDİNDƏ**
**SUMQAYIT DÖVLƏT TEXNIKI KOLLECI**

# “AZƏRBAYCAN İQTISADIYYATI”

***fənnindən mühazirələr***

**Orta Ixtisas Təhsil müəssisələrində**
**fənnin tədrisi üçün nəzərdə tutulub**

***SUMQAYIT-2020***

## Azərbaycan iqtisadiyyatının predmeti və metodu

"Azərbaycan iqtisadiyyatı" elminin predmeti Azərbaycanın iqtisadiyyatıdır. Amma Azərbaycanın iqtisadiyyatı anlayışı çox geniş, çoxsahəli və mürəkkəb sistemdir. Elə bir insan fəaliyyəti, sahəsi yoxdur ki, o, bu və ya digər dərəcədə iqtisadiyyatla bağlı olmasın, onun inkişaf və tərəqqəsində iştirak etməsin. Hər bir dövlətin milli iqtisadiyyatının formalaşması və inkişafı üçün eyni şərait olmadığından milli iqtisadiyyatların inkişaf səviyyəsində müxtəlif olur.Bunun isə əsas səbəbi hər bir dövlətin keçdiyi tarixi inkişaf yolu ilə əlaqədardır və bunun obyektiv və subyektiv səbəbləri vardır. "Azərbaycan iqtisadiyyatı"fənninin predmeti Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişafı iqtisadi qanunauyğunluqlarını öyrənmək və milli mənafeyə uyğun tövsiyyələr hazırlamaqla bərabər ümumbəşəri iqtisadi qanununauyğunluqları da özündə birləşdirməlidir. Bildiyimiz kimi, Azərbaycan iqtisadiyyatı dünya təsərrüfat sisteminin tərkib hissəsidir, dünyadabaş verən iqtisadi proseslərindən kənarda qalmaq qeyri-mümkündür və dünyada yaradılan mütərəqqi texnika-texnologiyalaradan və istehsal təcrübəsindən istifadə etmədən milli iqtisadiyyatı inkişaf etdirmək mümkün olmaz.Bütün bunlar "Azərbaycan iqtisadiyyatı"nın predmeti Respublikanın iqtisadi sistemi və bu sistemi təşkil edən məhsuldar qüvvələr, iqtisadi münasibətlər sistemi və təsərrüfat mexanizmidir.Azərbaycan Respublikasının qarşısında duran iqtisadiyyat yaratmaqdır.

Bu çətin vəzifənin yerinə yetirilməsi üçün iqtisadi azadlıq azad iqtisadiyyat, iqtisadi müstəqillik müstəqil iqtisadiyyat terminlərinin mahiyyətini bilmək lazımdır.İqtisadi azadlıq başqasının himayəsində,ələ baxımlığından qurtarıb öz imkanları hesabına yaşamağa qadir olmaq deməkdir.Azad iqtisadiyyat fəaliyyəti kənar qüvvələrin təsiri ilə məhdudlaşdırılmayanbazar qanunları ilə tənzim olan, bazarın tələbinə uyğun fəaliyyət göstərən iqtisadiyyatdır.İqtisadi müstəqillik-o deməkdir ki, 1-ci xalq tarix boyu malik olduğu sərvəti və təbiətin ona verdiklərini öz mənafeyinə uyğun istifadə etməli, 2-ci cəmiyyət özünün iqtisadi cəhətdən yaşamaq gücünə malik olur, 3-cü tərəddüd etmədən xarici iqtisadi əlaqələr yaratmaq lazımdır.Müstəqil iqtisadiyyat-siyasi müstəqillik, ərazi bütövlüyü, təbii və milli sərvətin xalqa mənsub olması, xalqın öz iqtisadiyyatını idarə etmək bacarığı, dövlətin müstəqil siyasəti, işlək idarəetmə mexanizmi və hüquqi əsası olmaq deməkdir.

### *Azərbaycanın iqtisadi rayonları.*

İqtisadi rayon yalnız ixtisaslaşması ilə deyil həm də istehsalın kompleks inkişafı ilə səciyyələnir. Respublikamızda iqtisadi cəhətdən daha inkişaf etmiş iqtisadi rayonlarda ərazi-istehsal kompleksi (ƏİK) formalaşır. Təsərrüfatın ƏİK formasında yerləşdirilməsinin

üstünlükləri; müəssisələr yığcam ərazidə yerləşir, vahid nəqliyyat-enerji-tikinti bazası əsasında kombinatlar yaranır, kooperasiya əlaqələri böyük iqtisadi səmərə verir. Təbii sərvət, əmək ehtiyatları, təkrar xammal, tullantılardan səmərəli istifadə etməyə imkan verir. Təbii şərait, məskunlaşma, təsərrüfat xüsusiyyətləri nəzərə alınaraq Azərbaycan Respublikasında aşağıdakı iqtisadi rayonlara ayrılır: 1. Abşeron iqtisadi rayonu (Abşeron, Xızı rayonları, Sumqayıt şəhəri); 2. Aran iqtisadi rayonu (Ağcabədi, Ağdaş, Beləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab, Şirvan, Mingəçevir, Yevlax şəhərləri); 3. Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan, Şamaxı rayonları); 4. Gəncə-Qazax iqtisadi rayonu (Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz rayonları, Gəncə, Naftalan şəhərləri); 5. Quba-Xaçmaz iqtisadi rayonu (Şabran, Xaçmaz, Quba, Qusar, Siyəzən rayonları); 6. Lənkəran iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı, Lənkəran rayonları); 7. Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Kəngərli, Şərur rayonları) 8. Kəlbəcər-Laçın iqtisadi rayonu (Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı rayonları); 9. Şəki-Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala, Şəki rayonları); 10. Yuxarı Qarabağ iqtisadi rayonu (Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Fizuli rayonları, Xankəndi şəhəri).

*Quba-Xaçmaz iqtisadi rayonu.*

İqtisadiyyatın əsas sahəsi aqrar-sənaye kompleksi (ASK), xüsusən kənd təsərrüfatıdır. İxtisaslaşmış sahə tərəvəzçilik, tumlu meyvəçilikdir. Həmçinin üzüm (Dəvəçi, Xaçmaz), kartof (Qusar, Quba), taxıl əkilir. Düzən zonada südlük-ətlik maldarlıq, dağətəyi və dağlıq zonzdz qoyunçuluq, Siyəzən və Dəvəçidə quşçuluq inkişaf etmişdir.

Rayon sənayesinin əsasını yerli xammala əsaslanan yeyinti və yüngül sənaye təşkil edir. Taxıl məhsulları kombinatı (Xaçmaz, Dəvəçi), balıq emalı müəssisələri fəaliyyət göstərir. Yüngül sənaye xalçaçılıq (Pirəbədil, Quba, Qonaqkənd, Xaçmaz) və kiçik tikiş müəssisələri ilə təmsil olunur.

Ağır sənayeyə Siyəzən neft-qaz hasilatı, Quba elektrotexnika zavodu, Xaçmaz qara metal qırıntı emalı müəssisələri aiddir.

Rayon dəmiryol, avtomobil, boru-kəməri nəqliyyat növlərinə görə fərqlənir. İqtisadi rayonun iri şəhərləri Xaçmaz və Qubadadır.

*Abşeron iqtisadi-coğrafi rayonu.*

Abşeron respublikanın ən mühüm sənaye rayonudur. Sənaye yerli neft, qaz, tikinti materialları, kənd təsərrüfatı xammalı, həmçinin gətirmə metal, taxta şalban və s.-ə əsaslanaraq inkişaf edir.

XIX əsrin 70-ci illərindən başlayan neft sənayesinin inkişafı digər sənaye sahələrinin də inkişafına təkan verdi. Abşetron rayonunun payına respublikada çıxarılan neftin 80%-dən çoxu, elektrik enerjisinin 1/3-i düşür (Şimal, Əhmədli DRES-ləri, 4 İEM). Maşınqayırma müəssisələrinin 2/3-si buradadır. Maşınqayırmanın aparıcı sahələri neft maşınqayırmasıdır (Səttarxan, Keşlə, B.Sərdarov adına, Suraxanı, Dərin özüllər zavodu və s.), elektrotexnika və radioelektronika (kondisioner, soyuducu, Sumqayıt kompressor zavodu və s.). İxtisaslaşmış sahələrə kimya və neft-kimya (Sumqayıt Sintetik kauçuk, Kimya sənaye istehsalbirliyi, Bakı şin zavodu, Azərneftyağ, Yeni Bakı neftayırma zavodları və s.), metallurgiya (Sumqayıt boruyayma və alüminium zavodları), tikinti materialları (Bakı və Sumqayıt şüşə, Qaradağ sement, Qaradağ, Güzdək, Korgöz divar daşı, Sumqayıt polimer), yüngül və yeyinti sənaye sahələri də aiddir.

ASK ilə bağlı südlük-ətlik maldarlıq, broyler quşçuluğu, tərəvəzçilik, üzümçülük istiqamətli şəhərətrafı kənd təsərrüfatı inkişaf etmişdir. Abşeron zəfəran (Bilgəh), zeytun, badam, əncir,şanı üzümü ilə məhşurdur.

Rayonun əsas şəhjəri olan Bakı və Sumqayıt respublikanın iqtisadi, elmi və mədəniyyət mərkəzləri olmaqla yanaşı, həm də nəqliyyat qovşağı funksiyasına malikdirlər.

Abşeron respublikanın ekoloji cəhətdən ən gərgin regionu sayılır. İqtisadi rayonun şimal hissəsi mühüm sağlamlıq zonasıdır. Abşeronda təbii balneoloji resurslar əsasında Bilgəh, Buzovna, Pirşağı, Mərdəkan, Şüvəlan kurortları fəaliyyət göstərir.

*Dağlıq Şirvan iqtisadi-coğrafi rayonu.*

İqtisadi rayon üzümçülük-şərabçılıq, taxılçılıq və heyvandarlıq rayonudur. Taxıl və üzüm dəmyə əsasında inkişaf edir. Rayonda kartofçuluq, bostan-tərəvəzçilik yerli istehlak xarakteri daşıyır.n Qoyunçuluq, maldarlıq, quşçuluq, arıçılıq sahələri inkişaf etmişdir.

Zəif inkişaf etmiş sənaye yerli xammala əsaslanan yeyinti, yüngül sənayedən, tikinti materialları istehsalından ibarətdir. Yeyinti sənayesi şərabçılıq (Mədrəsə, Kaqor), yağ-pendir, çörək zavodları, tikinti sənayesi, meşə və ağac emalı, daş karxanaları, asfalt və kərpic zavodları ilə təmsil olunuir. Ənənəvi sənətkarlıq və toxuculuq yüngül sənayenin aparıcı sahəkləridir. “Şirvan” və “Sumax” tipli xalçalar, Basqal və Şamaxıda ipək kəlağayılar toxunur.

Son dövrdə televizor zavodu istifadəyə verilmişdir.

Bakı-Qazax avtomobil yolu rayon iqtisadiyyatında böyük rol oynayır.

*Şəki-Zaqatala iqtisadi-coğrafi rayonu.*

Rayon aqrar-sənaye rayonudur. Kənd təsərrüfatının aparıcı sahələri tütünçülük, baramaçılıq, qərzəkli meyvəçilik, taxılçılıq, qoyunçuluq, camışçılıqdır. Rayonda həmçinin az miqdarada qızılgül, çay, çəltik və s. bitkilər becərilir.

Rayonun sənayesi zəif olmaqla birtərəflidir.Əsas sənayesi yerli xammala əsaslanan yeyinti və yüngül sənaye sahələridir. Yeyinti sənayesinin əsas məhsulları şərab(Şəki), meyvə-tərəvəz konservi (Qəbələ, Balakən, Qax), fındıq, çay (Zaqatala), ət və süd məhsulları. Qızılgül yağı (respublikada yeganə, Zaqatalada) və s.-dir. Yüngül sənayenin əsasını ipəkçilik təşkil edir. Şəki ipək kombinatı həm yerli, həm də gətirmə xammala əsaslanaraq baramaaçmadan son məhsul istehsalına qədər bütün mərhələləri özündə birləşdirir və bu sahənin respublikada ən iri müəssisəsidir. Şəki, Qəbələ, Balakən, Zaqatalada tütün fermentləmə zavodları var. Zaqatala mebel fabriki, kərpic zavodları yerli istehlak xarakteri daşıyır.

Filizçay polimetal filiz yatağının istismara verilməsi rayonun iqtisadi inkişafına böyük təkan verə bilər. Gözəl təbiət, iqlim şəraiti, tarixi memarlıq abidələri rayonun turuzim-istirahət zonasına çevrilməsinə imkan verir.nYevlax-Balakən dəmir və avtomobil yolları həm rayondaxili, həm də xarici iqtisadi əlaqələrdə mühüm rol oynayır. İqtisadi rayonun ən iri şəhəri respublika tabeli Şəki şəhəridir. O, qədim memarlıq abidələri təmiz havası ilə seçilir.

*Kəlbəcər-Laçın iqtisadi-coğrafi rayonu.*

Təbii sərvətləri qızıl, civə, xromit (Kəlbəcər), mərmər, üzlük tikinti daşları, perlit, mineral sular (İstisu, Minkənd) və s.-dir. İqlim, landşaft və mineral sular rekreasiya imkanları yaradır.

Rayon kənd təsərrüfatı rayonudur. Qoyunçuluq, arıçılıq, meyvəçilik, taxıl, tütünçülük, tərəvəzçilik əsas sahələrdir.

Yeyinti (ət-süd məhsulları, çörəkbişirmə) və yüngül (tikiş, toxuculuq, xalçaçılıq) sənaye yerli istehlak xarakteri daşıyır. Əsas nəqliyyat növü avtomobil nəqliyyatıdır.

*Gəncə-Qazax iqtisadi-coğrafi rayonu.*

Faydalı qazıntılardan (“Azərərbaycan Uralı”) respublika metallurgiyasının xammal bazasını təşkil edən dəmir (Daşkəsən), alunit (Zəylik, Alunitdağ), bentonit gili (Daş Salahlı), seolit (Tovuz), neft (Ceyrançöl), müalicə nefti (Naftalan), sement xammalı, tikinti materialları əsas yer tutur.

Gəncə-Daşkəsən iqtisadi rayonunda qara və əlvan metallurgiya, digər yerlərdə yüngül və yeyinti sənayesi inkişaf etmişdir. Daşkəsən dəmir filizi saflaşdırıldıqdan sonra Gürcüstana göndərilir. Zəylik aluniti əsasında Gəncə (burada əsas məhsulla yanaşı sulfat turşusu, kalium gübrəsi istehsal edilir) və Sumqayıt alüminium zavodları fəaliyyət göstərir.

İqtisadi rayonda maşınqayırma (cihazqayırma, avtomobil, rabitə avadanlığı), elektroenergetika, yüngül (pambıq və yun parça, xalça-Gəncə pambıqtəmizləmə zavodu, Gəncə çini-saxsı qablar zavodu), yeyinti (meyvə-tərəvəz konservi, şərab, ət-süd məhsulları, unüyütmə, qənnadı), tikinti materialları (evtikmə, dəmir-beton, kərpic-keramit, mərmər) sənayesi inkişaf etmişdir.

Kənd təssərrüfatında üzümçülük, kartofçuluq (Gədəbəy, Daşkəsən, Şəmkir, Tovuz), taxılçılıq, bostançılıq və tərəvəzçilik, pambıqçılıq (Goranboy), qoyunçuluq əsas yer tutur.

Bakı-Tibilisi dəmir və avtomobil yolları mühüm iqtisadi əhəmiyyətə malikdir.

*Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonu.*

Kənd təsərrüfatının aparıcı sahələri üzümçülük, bağçılıq, pambıqçılıq, heyvandarlıq, arıçılıqdır. Tut bağları baramaçılığın inkişafına şərait yaradır.

Sənayenin əsasını yerli xammal emal edən yüngül, yeyinti, tikinti materialları sənayesi təşkil edir. Yeyinti sənayesi şərabçılıq, meyvə-tərəvəz konservi, unüyütmə, çörəkbişirmə, yüngül sənaye pambıqtəmizləmə, toxuculuq, ipək, xalçaçılıq, ayaqqabı istehsalı ilə təmsil olunur.

Təbii şərait, mineral sular, gözəl mənzərələr turizm-istirahət zonaları yaratmağa imkan verir.

*Aran iqtisadi-coğrafi rayonu.*

Təbii sərvətləri neft (Əli Bayramlı, Salyan, Neftçala, Muradxanlı-Mollakənd), aqroiqlim, torpaq, hidroresurslar, tuqay meşələridir. Vaxtilə geniş yayılmış tuqay meşələri qırılmış, əkin sahələrinə çevrilmişdir.

Yanacaq-energetika sənayesi yeraltı (neft,qaz) və yerüstü (hidroenerji, günəş enerjisi) enerji mənbələrinə əsaslanır.Muradxanlı, Şirvanneft,Salyanneft, Neftçalaneft

mədənləri rayonun mərkəz və cənub-şərqindədir. Respublikada istehsal edilən elektrik enerjisinin 60%-i burada (Mingəçevirdə Azərbaycan DRES, SES, Əli Bayramlı DRES) istehsal edilir.

İqtisadi rayonda kimya (Neftçala yod-brom, Salyan plastik kütlə, rezin-texniki məmulat- amingəçevir), maşınqayırma (Əli Bayramlı avtomat cihazqayırma, mayesiz transformator, kənd təsərrüfatı maşınları təmiri, Salyan qaynaq avadanlığı,), tikinti

(Mingəçevir və Yevlax dəmir-beton və iri panelli evtikmə kombinatları), yüngül (pambıqtəmizləmə zavodları, sapəyirmə - Göyçay, pambıq toxuma- Mingəçevir, yun zavodu - Yevlax, suni dəri – Əli Bayramlı, xalça, gön dəri zavodları), yeyinti (Mingəçevir və Bankə balıq, Kürdəmir və Göyçay şərab zavodları, süd-yağ, pendir, unüyütmə, çörəkbişirmə) sənaye sahələri inkişaf etmişdir. Əsas sənaye müəssisələri rayonun cənub-şərqində (Əli Bayramlı- Salyan) və şimal-qərbində (Mingəçevir- Yevlax) sənaye qovşaqlarında cəmlənmişdir.

Rayonun kənd təsərrüfatı suvarma əkinçiliyinə əsaslanan pambıqçılıq, üzümçülük, yem tədarükü qış otaqlarına əsaslanan qoyunçuluq üzrə ixtisaslaşıb. Digər sahələrdən quru subtropik meyvəçilik (nar, heyva, xurma), bostançılıq-tərəvəzçilik, taxılçılıq, baramaçılıq, camışçılıq, balıqçılıq inkişaf etmişdir.

### *Lənkəran-Astara iqtisadi-coğrafi rayonu.*

Rayon iqtisadiyyatının əsasını ASK təşkil edir. Təbii şəraitə uyğun olaraq kənd təsərrüfatında faraş (tezyetişən) tərəvəzçilik, çayçılıq, üzümçülük, taxılçılıq üstünlük təşkil edir. Dağlıq ərazidə tütünçülük və heyvandarlıq inkişaf etmişdir. Rayon respublikanın əsas sitrus meyvəşiliyi (limon, naringi, portağal, feyxoa) rayonudur. Sahilboyu balıq ovlanır.

Rayonun sənayesi yerli xammala əsaslanan yeyinti (Lənkəran və Nərimanabad balıq emalı, Lənkəran, Astara, Masallı çay, Lənkəran və Masallı tütün emalı müəssisələri), tikinti materialları, mebel (Lənkəran) sənaye sahələridir.

Bakı-Astara dəmir və avtomobil yolları iqtisadi əlaqələrin inkişafında böyük rol oynayır və Azərbaycan-İran münasibətlərinə təsir göstərir.

İqtisadi rayonun ən iri şəhəri Lənkərandır.

### *Naxçıvan iqtisadi-coğrafi rayonu.*

Təbii sərvətlərdən molibden, dolomit, mineral sular, polimetal (Gümüşlü), volfram (Parağaçay), daş duz, tikinti materialları (mərmər, travertin, gips, əhəng) var.

Sənayenin əsasını yeyinti məhsulları istehsalı təşkil edir. Bu sahə mineral sudoldurma, şərab, meyvə-tərəvəz konservi, ət-süd məhsulları, duz hasilatı, unüyütmə ilə təmsil olunur. Digər sənaye sahələri elektroenergetika (Araz su qovşağı), yüngül, hasilat və tikinti sənayesidir.

Əkinçilik suni suvarmaya əsaslanır. Araz, Arpaçay və Sirab su anbarları suvarmaya imkan verir. Düzənlik və dağətəyi zonanın qərbində üzümçülük, şərqində çəyirdəkli meyvəçilik, orta dağlıqda tütünçülük və taxılçılıq, son illərdə xına, şəkər çuğunduru əkinləri genişlənir. Ordubadda çəyirdəkli meyvəçilikdə əsas yer tutur.

Avtomobil yolları yerli və beynəlxalq, aviasiya beynəlxalq əhəmiyyətə malikdir. Rayonda şərait (İlandağ, Əshabül-Kəf, Sirab) və qədim memarlıq kompleksləri turizmə imkan açır.

Naxçıvan sənaye qovşağı MR-da istehsal olunan sənaye məhsulunun 2/3-ni verir. Rayonun ən iri şəhəri Naxçıvandır. Burada beynəlxalq hava limanı yerləşir.

*Azərbaycanın yanacaq-energetika sənayesi.*

Strateji əhəmiyyətə malik YES kompleksi yanacaq və elektroenergetika sənaye sahələrinə bölünür. Yanacaq sənayesi müxtəlif yanacaq növlərinin (neft, qaz, kömür, torf, şist və s.) hasilatı, emalı və istehlakçıya çatdırılmasını əhatə edir.

Respublikamızda istifadə olunan əsas enerji mənbələri neft, təbii qaz, hidroenerji, perspektivdə Günəş və külək enerjisidir.

Neft sənayesi Azərbaycanın qədim sənaye sahəsi olmaqla ölkə tarixində və iqtisadiyyatında böyük rol oynayır. Bu sahədə zəngin elmi-texniki təcrübə toplamış Azərbaycan “Neft akademiyası” adlandırılır. Dünyada mexaniki üsulla ilk neft çıxarılması 1847-ci ildə Bibi-Heybət mədənlərində həyata keçirilmişdi. Neft sənayesi digər sahələrin (neft-kimya, neft maşınqayırması) yaranmasına, Bakı aqlomerasiyasının formalaşmasına səbəb olmuşdur.

Neft sənayesi inkişafa Abşeronda başlasa dasonra onun coğrafiyası genişlənmiş, 1949-cu ildən Xəzər dənizinə keçmişdir. Balaxanı, Sabunçu, Ramana, Bibi-Heybət, Suraxanı, Binəqədi və Pirallahı yataqlarında yerləşirdi.

Dənizdə neft yataqları 1947-ci ildə Gürgan-dəniz, 1949-cu ildə Neft Daşları, 50-ci illərdə Darvin, Çilov, Qum adası, 70-ci illərdə Sanqaçal-dəniz, Duvannı-dəniz, Günəşli, Bahar, son illərdə, Azəri, Günəşli, Çıraq, Şahdəniz, Qarabağ kimi zəngin neft-qaz yataqları istifadəyə verilmişdir. Vəsait çatışmamazlığı və texniki imkanların məhdudluğu, neft və qaz hasilatında xarici şirkətlərlə (ABŞ-ın “Amoko”, “Penzoyl”, İngiltərənin “Britiş Petroleum” və s.) əməkdaşlığı zəruri etmişdir.

Neft emalı müəssisələri 90 adda məhsul istehsal edir. Bu sahənin ən iri zavodu Yeni Bakı neftayırma zavodudur. Zavodlarda qazaxıstandan gətirilən xam neft də emal olunur. Neft və neft məhsulları Xəzər dənizi, dəmiryolu, boru kəmərləri (Bakı-Novorossiysk, Bakı-Supsa) vasitəsilə ixrac olunur. Gələcəkdə Bakı-Ceyhan kəməri Azərbaycan və Qazaxıstan neftini birbaşa aralıq dənizinə çıxarmağa imkan verəcək.

Qaz sənayesi 1928-ci ildən mühüm sahəyə çevrilmişdir. Ən sərfəli, ekoloji cəhətdən təmiz, ucuz yanacaq olan təbii qaz kimya sənayesinin mühüm xammalıdır. Respublikamızda qazın az hissəsi müstəqil qaz yataqlarında hasil edilir. Müstəqil qaz ehtiyatlarının 80%-i, kondensantın 93%-i dəniz yataqlarının payına düşür. Quruda əsas qaz yataqları Qaradağ-Qobustan, Gürgan-Zirə, dənizdə Şahdəniz yataqlarıdır. Respublika daxilində Qaradağ-Ağ şəhər, qaradağ-Sumqayıt, Zirə-Bakı, Siyəzən-Sumqayıt, Çıraq-Neft Daşları-Bakı qaz kəmərləri fəaliyyət göstərir. Şahdəniz yatağının istifadəyə verilməsi Bakı-Ərzurum kəmərinin çəkilməsinə və Azərbaycan qazının dünya bazarına çıxarılmasına imkan verəcək.

Elektroenergetika elektrik enerjisi istehsalı və onun istehlakçıya çatdırılması prosesini özündə birləşdirir. O, xalq təsərrüfatının “qan damarı” olmaqla, onu elektrik enerjisi və buxarla təmin edir. Dünya praktikasında elektrik enerjisi Su elektrik stansiyası (SES), İstilik elektrik stansiyası (İES), Atom elektrik stansiyası (AES), Günəş, külək, geotermal, qabarma və s. növ stansiyalarda istehsal edilir. Respublikamızda elektrik enerjisi İES və SES-lərdə istehsal olunur.

İES-lər tez tikilir, ucuz başa gəlir, az sahə tutur, lakin çoxlu yanacaq tələb edir və ətraf mühiti çirkləndirir. SES-lərin tikintisi gec və baha başa gəlir, geniş sahələri su basır, lakin bərpa olunan axar sudan istifadə edir və ekoloji cəhətdən təmizdir.

Azərbaycanda ilk elektrik stansiyaları XIX əsrin 80-ci illərində Bakıda (İES) və Gədəbəydə (Qalakənd, 1890, SES) tikilmişdir. Hazırda bütün elektrik stansiyalarının ümumi gücü 5 mln kvt-a yaxındır. Bunun 80%-i İES, 20%-i SES-lərin payına düşür.

Azərbaycanda İES-lər qaz və mazutla işləyir. İES-lər ancaq elektrik enerjisi istehsal edən dövlət rayon elektrik stansiyaları (DRES) və elektrik enerjisi ilə yanaşı buxar istehsal edən istilik-elektrik mərkəzlərindən (İEM) ibarətdir. İES-lər çoxlu elektrik enerjisi və buxar işlədən Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Əli Bayramlı sənaye qovşaqları ərazisində yaradılmışdır.Azərbaycanın ilk İES-ləri Bakıda (Qırmızı Ulduz-hazırda Bayramzadə, Bayıl-hazırda sökülmüşdür, Sabunçu), sonralar Sumqayıtda iki güclü İEM, Əli Bayramlıda Avropada ilk açıq tipli DRES, (gücü 1,2 mln kvt), Abşeronda “Şimal” DRES-i, Gəncə İEM-i, Mingəçevirdə layihə gücü 3,6 mln kvt olan “Azərbaycan” DRES-i tikilmişdir. Bu İES-lər respublika energetikasının əsasını təşkil edir.

SES-lər güclü hidroenerji ehtiyatlarına malik çayların üzərində (Mingəçevir-gücü 360 min kvt, Şəmkir-380 min kvt, Yenikənd-Kür üzərində, Sərsəng 50 min kvt.- Tərtər üzərində, Araz su qovşağı-22 min kvt.- Araz üzərində; Naxçıvan ŞM) tikilmişdir. SES-lərin tikintisi kompleks xarakter daşımaqla elektrik enerjisi istehsalı, irriqasiya (suvarma) – nəqliyyat, su təchizatı, balıqçılıq problemlərini həll edir.

Azərbaycanda vahid energetika şəbəkəsi yaradılmışdır. O, Rusiya, İran, Türkiyə, Gürcüstan enerji şəbəkəsi ilə əlaqələndirilmişdir.

Azərbaycanda ekoloji cəhətdən təmiz günəş, külək, geotermal enerhi mənbələrindən istifadənin perspektivləri böyükdür. Quba-Dəvəçi, Orta Kür, Lənkəran-Astara zəngin isti su ehtiyatlarına malikdir.

*Azərbaycan Respublikasının metallurgiya sənayesi.*

Metallurgiya sənaye kompleksi qara və əlvan metallurgiya sahələrinə bölünür.

Ölkəmizdə metallurgiya sənayesinin inkişafını müəyyən edən əsas amillər:

1. Bol və rəngarəng xammal bazasının olması;
2. Müxtəlif metal tullantılarının bazasının olması;
3. Yerli enerji ehtiyatlarının-neft və təbii qazın olması;
4. Metaltəlabatlı sənaye və tikinti sahələrinin olması;
5. Təcrübəli kadr və əmək ehtiyatlarının olması;
6. Mövcud maddi-texniki baza əsasında yeni sahələrin yaranma imkanı.

Qara metallurgiyaya dəmir filizinin çıxarılması, saflaşdırılması, çuqun və polad əridilməsi, prokat və ferroərintilər istehsalı daxildir.

Ölkəmizdə qara metallurgiya neft-qaz sənayesinin tələbatı ilə bağlı yaradılmışdır. Gəncə-Daşkəsən və Abşeron metallurgiya bazarları formalaşmışdır. Son illərdə Abşeron metallurgiya bazası daha çox metal tullantılarına əsaslanır.

Respublikamızda qara metallurgiyanın əsas müəssisələri Daşkəsən dağ-mədən kombimatı, Sumqayıt boru-prokat zavodu, Bakı təkrar qara metallurgiya zavodu, Bakı polad istehsalı şirkəti və iri maşınqayırma zavodlarının nəzdində olan metaləritmə sexləridir. Metallurgiya sənayesinin inkişafı üçün bentonit gilinin (Qazax, Daş Salahlı) rolu böyükdür. Fasiləsiz polad əridilməsində, metaltökmə qəlibinin hazırlanmasında geniş istifadə olunur.

Əlvan metallurgiyaya əlvan metal filizinin hasilatı, saflaşdırılması, əridilməsi, müxtəlif ərintilərin alınması daxildir. Əlvan metallar ağır, yüngül, qiymətli, çətin əriyən və nadir metallara bölünür. Ağır əlvan metallara mis, qalay, qurğuşun, sink, nikel; yüngüllərə alüminium, titan, maqnezium; qiymətlilərə qızıl, gümüş, platin; çətin əriyənlərə volfram, molibden; nadir metallara uran, germanium aiddir.

Əlvan metallurgiyanın əsas müəssisələri Sumqayıt və Gəncə alüminium zavodları, Bakı və Gəncə əlvan metalların emalı zavodlarıdır. Alüminium sənayesinin inkişafı alunit ehtiyatları və bol enerji imkanları ilə bağlıdır. Gəncə alüminium zavodunda alüminium oksidi, kükürd qazı,kalium gübrəsi, sulfat turşusu və s. alınır. Gəncə-Qazaxda (Zəylik, Alunitdağ), Şəki-Zaqatala ərazisində (Filizçay, Katexçay), Naxçıvan MR-də (Parağaçay, Gümüşlü), Kəlbəcər-Laçında və Yuxarı Qarabağda əlvan metallurgiya sənayesinin inkişafı üçün perspektivlər böyükdür.

Azərbaycanda metallurgiya sənayesinin ən gənc sahəsi ovuntu metallurgiyasıdır. Bakıda bürünc və tunc ovuntuları istehsal olunur, çətin əriyən birləşmələr sintez edilir.

*Azərbaycan Respublikasının maşınqayırma kompleksi.*

Maşınqayırma kompleksi bir-biri ilə qarşılıqlı əlaqədə olan energetika, elektrotexnika, radioelektronika, cihazqayırma, nəqliyyat, kənd təsərrüfatı, müxtəlif avadanlıq maşınqayırması sahələrindən ibarətdir. Maşınqayırma eyni zamanda digər sahələrdən (yanacaq-energetika, kimya, meşə və s.) xammal və avadanlıqlar alır.

Müasir maşınqayırma zavodları tökmə, dəmirçi-pres, mexaniki və yığma sexlərdən ibarətdir.

Respublikamızda 1970-ci illərə qədər maşınqayırma neft-qaz sənayesi üçün avadanlıq istehsalı üzrə ixtisaslaşmışdır. Neft sənayesi üçün maşın və avadanlıq istehsalı indi də maşınqayırmanın əsas sahəsi sayılır. Bu sahənin ümumi məhsulunun ¼-i onun payına düşür.Bakıda neft avadanlığı istehsalı üçün zəngin təcrübə, peşəkar fəhlə və yüksək ixtisaslı elmi texniki kadrlar, neft-maşınqayırma institutları, konstruktor-layihə büroları, neft-qaz sənayesinin tələbatı geniş imkanlar açır. Bu sahənin iri müəssisələri “Başneftkimmaş birliyi”, Səttərxan, Keşlə, Binəqədi, Bakı dərin dəniz özülləri zavodu və s.-dir.

Elektrotexnika sürətlə inkişaf edən sahədir və respublika maşınqayırma məhsulunun 40%-i onun payına düşür. Bu sənaye sahəsi işıq-texniki avadanlığı, elektrik lampaları, transformator, akkumulyator (Bakı), kabel (Mingəçevir), kondisioner, televizor (Şamaxı) və s. Istehsal edir.

Yeni maşınqayırma sahələrinə cihazqayırma, avtomatlaşdırma vasitələri istehsalı aiddir. Əsas müəssisələri Bakı “Neftqazavtomat” (Əli Bayramlı məişət cihazları zavodu da bura daxildir), Bakı geofizika cihazqayırma, Gəncə “Büllur” zavodu və s.-dir.

Nəqliyyat və kənd təsərrüfatı maşınqayırması hələlik zəif inkişaf etmişdir. Gəncə avtomobil zavodu işə düşmüşdür. Kənd təsərrüfatı maşınqayırması Mingəçevir (avtoyükləyici, xəndəkqazan), Zəyəm (kənd təsərrüfatı alətləri, suvarma nasosları) müəssisələri ilə təmsil olunur.

*Azərbaycanın kimya sənayesi.*

Kimya sənayesi xalq təsərrüfatının aparıcı sahələrindən biri olmaqla yanaşı, bir sıra özünəməxsus xüsusiyyətlərə malikdir:

1. Kimya sənayesi təbii məhsullara nisbətən ucuz və tez başa gələn süni məhsullar (dəri, rezin, plastik kütlə və s.) istehsal edir.

2. Kimya sənayesi müxtəlif sahələrlə kombinələşərək yeni sahələr – neft-kimya, meşə-kimya, koks-kimya və s.-təşkil edir.

3. Kimya sənayesi sonsuz xammal bazasına malikdir.

Kimya sənayesinin əsas mənfi cəhəti ətraf mühiti daha çox çirkləndirməsi, ekoloji problemlər yaratmasıdır.

Kimya sənayesi aşağıdakı sahələrdən ibarətdir:

1.Mədən kimyası ;

2. Əsas kimya ;

3. Üzvi sintez kimyası ;

4. Polimerlər kimyası ;

5.Polimer materialların emalı.

Azərbaycanda ilk kimya zavodu 1879-cu ildə Bakıda tikilmişdi. Bu sənayenin kompleks inkişafı 1950-ci illərdən başlayır. Neftayırma və neft-qaz zavodları xammal rayonu – Bakı-Sumqayıt sənaye qovşağında cəmlənmişdir. Bakı neftayırma zavodlarından boru kəməri vasitəsilə Sumqayıt kimya zavodlarına propan-propilen, butan-butilen və s. nəql edilir. Müəssisələrin, xammalın, enerjinin, ixtisaslı iş qüvvəsinin, yardımçı sahələrin yığcam ərazidə yerləşməsi hesabına nəqliyyat xərcləri azalır, iqtisadi səmərə əldə olunur.

Kimya sənayesinin əsas müəssisələri: Bakı neft-yağ, Bakı yeni neftayırma zavodları (benzin, dizel yanacağı, sürtkü yağları), Sumqayıt “Kimyasənaye” istehsal birliyi, “Sintetik kauçuk”, “Üzvi sintez”, Polimer zavodu, Bakı şin zavodu, Böyükşor və Bakıxanov qəsəbəsində əczaçılıq müəssisələri, Bakı və Neftçalada yod-brom istehsalı (mədən-buruq suları əsasında), Gəncə alüminium zavodu nəzdində sexlər (sulfat turşusu,sabun, lak-boya istehsalı), Salyan plastik kütlə zavolarıdır.

*Azərbaycanın aqrar-sənaye kompleksi (ASK).*

Aqrar-sənaye kompleksi kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrəbir-biri ilə bağlı olan kənd təsərrüfatı və sənaye müəssisələri sistemidir. ASK-nin aparıcı sahəsi kənd təsərrüfatıdır.

Kənd təsərrüfatı maddi istehsalın ən qədim sahəsidir və inkişafı ekstensiv və intensiv yollarla aparılır. Ekstensiv yol əkin sahələrinin genişləndirilməsi, heyvanların və müəssisələrin sayının artırılması hesabına məhsul istehsalının artırılmasıdır. İntensiv yol əlavə əmək və vəsait sərf etməklə, əmək məhsuldarlığının yüksəldilməsi hesabına məhsul istehsalının artırılmasıdır.

Azərbaycanda kənd təsərrüfatının çoxsahəli inkişafı üçün əlverişli torpaq-iqlim şəraiti var. Respublika ərazisinin bol istilik və işıq alması istisevən bitkilərin inkişafına, ildə iki dəfə məhsul götürməyə, örüş və otlaqlardan il boyu istifadə etməyə imkan verir. Düzən və dağətəyi ərazilərin quru iqlim suni suvarma tələb edir. Suvarılan torpaqlar kür-Araz, Samur-Dəvəçi, Lənkəran ovalıqlarında, Naxçıvanın Arazboyui düzənliyində, Böyük və Kiçik Qafqazın dağətəyi zonalarında yerləşir.

Respublikamızda mürəkkəb suvarma sistemi və su təsərrüfatı yaradılmışdır. Buraya su anbarları (Mingəçevir, Araz, Sərsəng, Ceyranbatan və s.), kanallar (Yuxarı Qarabağ, Yuxarı Şirvan, Samur-Abşeron və s.), axarlar, nasos stansiyaları və s. Daxildir. Qış otlaqlarına – Ceyrançöl, Acınohur, Qobustan və s. Kür və Qabırrı çaylarından su çıxarılmışdır.

Torpaq kənd təsərrüfatında əsas istehsal vasitəsidir. Respublikamızın torpaq fondunun (8,6 mln ha) yarısı (4,3 mln ha) kənd təsərrüfatına yararlıdır. Adambaşına əkin sahəsi 0,2 ha-dır.

Kənd təsərrüfatı 2 sahədən – bitkiçilik və heyvandarlıqdan ibarətdir.

Rerspublikamızda dəmyə əkinçilik, əsasən, orta və alçaq dağlıq əraziləri əhatə edir. Əkinçilıiyin əsas sahələri dənli bitkilər (buğda, arpa, çəltik, darı və s.), texniki bitkilər (pambıq, tütün, çay, günəbaxan və s.), yem bitkiləri əkinləridir.

Taxılçılıqda Şəki, İsmayıllı, Cəlilabad, Şamaxı, Balakən, Beyləqan, Sabirabad, Ağcabədi rayonları xüsusən fərqlənir. Əkinçilikdə texniki bitkiçilik daha gəlirli sahədir.Azərbaycanda əsas texniki bitkilər pambıq və tütündür. Pammbıqçılıq strateji əhəmiyyət daşıyan, gəlirli sahədir. Pambıq əkinləri tamamilə Kür-Araz ovalığında cəmlənmişdir (düzən relyef, isti iqlim, suvarma imkanları). Son illərdə həm pambıq istehsalı, həm də onun məhsuldarlığı xeyli aşağı düşmüşdür.

Tütünçülük Şəki, Oğuz, Qəbələ, Qax, Zaqatala, Yardımlı, Qubadlı, Kəlbəcər rayonları, Yuxarı Qarabağın dağətəyi, Naxçıvan MR-in Şahbuz və Şərur rayonlarında inkişaf etmişdir.

Çayçılıq Lənkəran, Astara, Masallı, qismən Zaqatalada inkişaf edib. Respublikamızda günəbaxan (Alazan-Əyriçay, Şamaxı, İsmayıllı), zəfəran (Abşeron-Bilgəh), xına (Naxçıvan MR, Kürdəmir, Salyan) bitkiləri də yetişdirilir.

Tərəvəzçilik geniş yayılmış əkinçilk sahəsi olsa da, ixtisaslaşmış zonalar Quba-Xaçmaz və Lənkəran-Astara iqtisadi rayonlarının düzənlik hissələridir. Lənkəran faraş (tezyetişən), Quba-Xaçmaz gecyetişən tərəvəzçilik üzrə ixtisaslaşmışdır. Bakı və Gəncə ətrafında istixanalarda tərəvəzçiliklə, Sabirabad, Saatlı, Kürdəmir, Zərdab, Abşeron yemiş-qarpız əkinlərinə görə fərqlənir.

Respublikamızın Gəncə-Qazax iqtisadi rayonunda (Gədəbəy, Tovuz, Şəmkir, daşkəsən, xanlar) və Qusarda kartof əkinləri geniş yayılıb.

Respublikamızda üzüm həm suvarma, həm də dəmyə şəraitində becərilir. Əsas üzümçülük rayonları Gəncə-Qazax (Şəmkir, tovuz, Qazax, Xanlar, Samux), Kiçik Qafqazın cənub-şərqi (Ağdam, Beyləqan, Fizuli), Cəlilabad, Şamaxı, Naxçıvan MR, həmçinin İsmayıllı, ağsu, Abşerondur. Üzüm məhsullarının ilkin emalı yerli təsərrüfatlarda, qablaşdırılması Bakı, Gəncə, Şəmkir, Xanlar, Göyçay, Naxçıvan vəs. şəhərlərdə yerləşən zavodlarda aparılır.

Bağçılıq (meyvəçilik) ənənəvi və ixtisaslaşmış kənd təsərrüfatı sahəsidir. Tumlu meyvəçilik (alma, armud) Quba-Xaçmaz, qərzəkli meyvəçilik (fındıq, qoz, şabalıd) Şəki-Zaqatala, çəyirdəkli meyvəçilik (ərik, şaftalı) Naxçıvan, quru subtropik meyvıçilik (heyva, nar) kür-Araz, (püstə, badam, əncir, zeytun) abşeron, sitrus meyvəçiliyi (limon, portağal, naringi, feyxoa) lənkəran-Astara, tut Yuxarı Qarabağ və Aranda ixtisaslaşmış sahələridir.

Azərbaycanda istehsal olunan heyvandarlıq məhsullarının əsas hissəsi maldarlığın payına düşür.Aran və Şəki-Zaqatala iqtisadi rayonlarında camışçılıq, Lerik və Yardımlıda zebu maldarlığı fərqlənir. Maldarlıqda Abşeron, Xaçmaz, Şəmkir, Şəki, Ağdam, Bərdə, Samux, Quba, Lənkəran rayonları nisbətən fərqlənir.

Qoyunçuluq yay və qış otlaqları əsasında inkişaf etdirilir və ənənəvi sahədir. qoyun sürüləri əsasən dağlıq və dağətəyi rayonlarda cəmlənmişdir. Azərbaycanda əsasən, dağ merinosu, həmçinin ətlik "Balbas" (Naxçıvan) , "Qarabağ", "Qala" (Abşeron) cinsli qoyunlar bəslənilir.

Quşçuluq sənaye əsasları üzrə inkişaf edir. Quşçuluq kompleksləri Bakı, Gəncə, Naxçıvan ətrafında yerləşir.

Respublikamızda  baramaçılıq aran və dağətəyi ərazilərdə (Şəki-Zaqatala, Kür-araz, Naxçıvan, Yuxarı Qarabağ), arıçılıq dağətəyi və dağlıq rayonlarda yayılmışdır.

Yeyinti sənayesi ASK-nin son mərhələsini əhatə edilir.Respublika sənaye məhsulunun  təqribən 30%-i, sənaye müəssisələrinin 1/3-i onun payına düşür. İxtisaslaşmış sahələri şərab-konyak, meyvə-tərəvəz konservi, tütün məmulat, balıq məhsulları, mineralları su doldurma və s.

Şərabçılıq ilkin şərab istehsalı (üzümçülük rayonlarında) və qablaşdırılması (Bakı, Gəncə, Şəmkir, Göyçay, Naxşıvan) müəssisələrindən ibarətdir.

Konserv sənayesinin ən iri müəssisə Xaçmaz konserv kombinatıdır. Quba, Qusar, Xudat, Ordubad, Balakən, Lənkərandakonserv zavodları, Zaqatalada fındıqtəmizləmə, Maştağada zeynut konserv zavodu fəaliyyət göstərir.

Ət-süd kombinatları böyük tələbatla əlaqədar olaraq iri şəhərlərin ətrafında - Bakı, Gəncə, Şəki, Xırdalan, Mingəçevir və s.-də yerləşir.

Balıqçılıq Xəzər dənizi və Kür çayının balıq ehtiyatlarına əsaslanır. Ən iri müəssisəsi Bankə kombinatıdır (nərə balığı və qara kürü emalı). Hövsan, Lənkəran, Mingəçevir, Qazıməmməd, Xudat, Zeynəlabdin balıq zavodları da fəaliyyət göstərir.

Respublikamız müalicə əhəmiyyətli mineral sularla zəngindir. Hazırda Naxçıvan MR-da "Badamlı", "Sirab",, "Vayxır" sudoldurma zavodları işləyir.

*Torpaq fondu*

Torpaq müqəddəsdir, onu qorumaq hər bir vətəndaşın borcudur. Villiyam Pettinin dediyi kimi: "Hər cür sərvətin anası torpaqdır, atası isə əməkdir". Təbii sərvət olan torpağı artırmaq və istehsal etmək mümkün deyil. Torpaq k/t da əsas istehsal vasitəsidir. Res-nın 8,6 mln hektar torpaq fondu vardır ki, bunun da 4,3 mln hektarı k/t-na yararlı hesab olunur. Bu torpaqların da 44%-ni əkin və şumluqlar, 4%-ni çoxillik əkmələr, 26%-ni biçənəklər təşkil edir. Ərazinin 11%-i meşə və kolluqlardır. Torpaq fondunun 40%-ni k/t-na yararsız torpaqlar təşkil edir. Respublika torpaqlarının 75%-i sovet dövründə Kolxoz, Sovxoz və digər dövlət təsərrüfatının daimi istifadəsində idi. Torpaq islahatının həyata keçirilməsi nəticəsində torpaq əsasən fərdi təsərrüfatçılara verilmişdir.

Sənaye və nəqliyyat üçün torpaq sahəsi adi tikinti yeri olduğu halda, k/t-ı üçün əsas istehsal vasitəsidir. Azərbaycan dünyanın torpaq ehtiyatı qıt olan ölkələri sırasına daxildir. Azərbaycanda adambaşına 0,2 ha əkin yeri düşür. Əhalinin sayının artması, sənaye, tikinti və nəqliyyatın ehtiyacları üçün yeni torpaq sahələrinin ayrılması ilə əlaqədar hər nəfərə düşən torpaq sahəsi azalmaqda davam edir. Torpaq ehtiyatlarından səmərəli istifadə, şoranlaşmış və korlanmış torpaqların bərpası ümumixalq və dövlət işidir.

Azərbaycanın təbii şəraitində relyefinin, iqliminin müxtəlif olması kimi onun torpaq tipləri də müxtəlifdir. Onlar qruplaşdırılaraq 8 torpaq tipinə bölünürlər:

1. Dağ-çəmən, 2. Dağ-meşə, 3. Çəmən-meşə torpaqları, 4. Dağ-qara torpaqları, 5. Şabalıdı torpaqlar, 6. Sarı-torpaqlar, 7. Boz-çəmən və boz qonur, 8. Şoran torpaqlar.

Torpaq tək Azərbaycanda deyil bütün yer kürəsində ən əhəmiyyətli bir sərvətdir.

*Azərbaycanda aqrar islahatlar.*

İqtisadiyyatın struktur dəyişmələrinin mühüm istiqamətlərindən biri də aqrar islahatın həyata keçirilməsi oldu. 1995-ci ilin martında "Dövlət aqrar islahatı" komissiyası yaradıldı. Prezident H.Əliyevin rəhbərliyi altında hazırlanan, onun siyası iradəsinin məhsulu olan "Torpaq islahatı haqqında" Qanun 1996-cı il iyulun 16-da qəbul edildi. Bu qanuna görə torpaq sosial ədalət prinsipinə əsasən, bütün postsovet respublikalarından fərqli olaraq kənddə yaşayan vətəndaşların xüsusi mülkiyyətinə pulsuz verildi. Respublikanın vahid torpaq fondu 3-dövlət, bələdiyyə və xüsusi torpaq mülkiyyəti forması müəyyən olundu. Kənd təsərrüfatı torpaqlarının 22%-i- 1 mln 911 min hektar xüsusi, 45%-i dövlət, 33%-i bələdiyyə mülkiyyətinə verildi. "Dövlət torpaqları haqqında", "Torpaq vergisi haqqında"qanunlar, bunlara uyğun normativ aktlar qəbul edildi. Bütün rayonlarda torpaqlar istifadəçilər üzrə inventarlaşdırıldı, iqtisadi cəhətdən qiymətləndirildi.

1996-cı ilin iyulunda Aqrar kredit kassaları yaradıldı. Respublikada 3,5 mln vətəndaşa torpaq payı ayrıldı. Əsrin sonlarında k/t-da sahibkarlığa əsaslanan 23 min kəndli (fermer) təsərrüfatı, yüzlərlə istehsal kooperativi, kiçik müəssisə fəaliyyət göstərirdi. Respublikada qaramalın 92,3%-i, davarın 91%-i özəl təsərrüfatlarda idi. 1998-ci ildə kənd təsərrüfatı məhsullarının illik artımı 4% təşkil etmişdirsə, 1999-cu ildə 7,1% olmuşdur.

*Azərbaycan respublikasının nəqliyyat kompleksi.*

İnkişaf etmiş nəqliyyat kompleksi xalq təsərrüfatının inkişafının təminatçısıdır. O, hasilat və emal, istehsalçı və istehlakçı arasında əlaqələndiricidir. Nəqliyyat bir çox sənaye müəssisələrinin yerləşməsinə təsir göstərir və məhsulun dəyərini 13-15% artırır.

Azərbaycan bütün müasir nəqliyyat növləri təmsil olunmuşdur. Dəmiryolu, su, avtomobil, hava, boru kəmərinin məcmusu vahid nəqliyyat sistemini təşkil edir.

Respublikamızda əsas nəqliyyat qovşaqları Bakı, Yevlax, Gəncə, Əli Bayramlıdır.

Azərbaycanda ilk dəmiryolu 1878-1879-cu illərdə Bakı-Balaxanı arasında çəkilmişdi.Azərbaycan dəmiryol xətlərinin uzunluğu 2008 km -dir, onun 1111 km-i elektrikləşmişdir. Dəmiryolu ilə daşınan əsas yüklər neft və neft məhsulları, tikinti materialları, maşın və avadanlıqları, filiz, ərzaq məhsullarıdır. Ən çox yük daşınan Bakı-Dərbənd və Bakı-Tiflis xəttidir.

Su nəqliyyatı ən ucuz və qədim nəqliyyat növlərindən biridir.Dəniz və çay nəqliyyatına bölünür. Dəniz nəqliyyatı xarici və daxili (kabotaj) daşımalardan ibarətdir. Azərbaycanın bütün dəniz yolları Bakıdan başlayır. xarici daşımalarda Bakı-Həştərxan (qışda bəzən Xəzərin şimal hissəsinin donması nəticəsində bağlanır), Bakı-Mahaçqala, Bakı-Ənzəli, Bakı-Bektaş, Bakı-Türkmənbaşı, Bakı-Aktau, kiçik kabotaj daşımalarda Bakı-

Astara, Bakı-Lənkəran, Bakı-Səlyan xətləri fəaliyyət göstərir. Xəzərdə daşınan əsas yüklər neft və neft məhsulları, taxıl, pambıq, taxta-şalban, duz və s.-dir.

Çay nəqliyyatı Kürün mənsəbindən Yevlax şəhərinə qədər yerli əhəmiyyətli yüklərin daşınmasından ibarətdir.

Avtomobil nəqliyyatında əsasən sərnişin, tez xarab olan kənd təsərrüfatı məhsulları, cihaz və avadanlıqlar daşınır. 1911-ci ildə avtomobil yollarının uzunluğu 1300 km olmuşsa, indi 27 min km-dir. Əsas yollar Bakı-Astara, Bakı-Dərbənd, Yevlax-Balakən və s.-dir. Mərkəzi Aran, Abşeron daha sıx yollara malikdir.Türkiyə və  İran istiqamətində genişlənən əlaqələrdə avtomobil nəqliyyatı başlıca rol oynayır.

Hava nəqliyyatı sürətli və bahalıdır. Ondan sərnişin, poçt, tez xarab olan məhsulların daşınmasında daha çox istifadə olunur. Bakı, Gəncə, Naxçıvan mühüm beynəlxalq əhəmiyyətli hava limanlarıdır. Daxili daşımalarda Yevlax, lənkəran, Şəki və digər hava limanlarının Bakı ilə müntəzəm əlaqələri yaradılmışdır.

boru kəməri vasitəsi ilə həm respublika daxilində, həm də ondan kənara və respublikaya neft və neft məhsulları, təbii qaz nəql edilir. Respublikamızda ilk neft kəməri 1878-ci ildə Balaxanı-qaraşəhər neftayırma zavodu arasında çəkilib. Dübəndi terminalından Əli-Bayramlıya çəkilmiş neft kəməri Orta Asiya neftinin xaricə ötürülməsinə imkan yaradır. Əsrin müqaviləsi (1994) ilə bağlı azərbaycan neftinin dünya bazarına çıxarılması üçün Bakı-Novorossiysk, Bakı-Supsa neft kəmərləri işləyir, Bakı-Ceyhan xətti yaxın gələcəkdə işə düşəcək.

Respublika daxilində əsas qaz kəməri Zirə-Bakı, Neft Daşları-Bakı, Qaradağ-Sumqayıt, Qaradağ-Ağstafa xətləridir.

*Xarici iqtisadi əlaqələr.*

İqtisadi əlaqələr daxili və xarici əlaqələrə bölünür. Respublikadaxili ticarət-iqtisadi əlaqələrin tənzimləyicisi rolunu əsasən, Bakı şəhəri oynayır.

Müstəqillik qazanan Azərbaycanın xarici iqtisadi əlaqələrin inkişafına böyük ehtiyacı var. Xarici iqtisadi əlaqələrin əsas formaları ticarət, valyuta-kredit münasibətləri, koorperasiya əlaqələri və s.-dir.

Hazırda ikitərəfli mal mübadiləsində məbləği və çeşidi çox olan mallar baxımından əsas əlaqələr İran, Türkiyə, Böyük Britaniya ilə yaradılmışdır. Ölkəmiz Danimarka, Yaponiya, Finlandiya, İraqa ixrac, Kanada, Misir, Norveç, İsveç, Sinqapur, Hindistandan isə müxtəlif məhsullar idxal edir.

Azərbaycandan ixrac olunan əsas məhsullar neft və neft məhsulları, pambıq, əlvan metal, soyuducu,kondisioner, istehlak mallarıdır. Daxili tələbatı ödəmək üçün

respublikamızın idxal etdiyi əsas məhsullar şəkər, yağ, buğda, yüngül sənaye məhsulları və s.-dir.

Rusiya, Ukrayna,Belorus, Qazaxıstanla ticarət əlaqələrinin həcmi böyükdür. Rusiyadan taxıl, metal, meşə materialları, maşın və avadanlıq, Belorusdan ərzaq, avtomobil, traktor, Qazaxıstandan taxıl, ət, metal və s. idxal edilir.

*Təbii sərvətləri*.

Təbii ehtiyatlar insanların istifadə etdikləri və edə biləcəkləri bütün nemətləri özündə birləşdirir. O, tükənən tükənməyən növlərə bölünür. Mineral resurslar (faydalı qazıntılar) yanacaq-energetika, metallurgiya, kimya və s. sənaye sahələri üçün xammal bazası olmaqla, cəmiyyətin iqtisadi inkişafının əsasını təşkil edir. Respublikamızın geoloji quruluşunun mürəkkəbliyi burada həm filiz, həm də qeyri-filiz mənşəli faydalı qazıntıların yaranmasına səbəb olmuşdur. Respublika ərazisinin 70%-i neft və təbii qaz cəhətdən prespektivlidir. Hazırda neft və kondensat ehtiyatlarının 9/10-dan çoxu dəniz yataqlarının payına düşür.

Respublikamızın iqtisadi əhəmiyyətli digər faydalı qazıntıları alunit (Zəylik; ehtiyatına görə dünyada II), polimetal (Zaqatala-Balakən-Filizçay, Naxçıvan-Gümüşlü), dəmir (Daşkəsən), molibden (Parağaçay, Qapıcıq), civə (Şorbulaq, Ağyataq), qeyri-filizlərdən bentonit gili (Daş Salahlı), seolit (Tovuz), daş-duz (Nehrəm), yodlu-bromlu su, mineral və termal sularıdır.

İqlim resursları istisevən bitkilərin inkişafına və hətta Şirvan, Mil, Muğan, Qarabağ düzləri, Lənkəran ovalığı, Abşeronda eyni torpaq sahəsindən ildə 2-3 dəfə məhsul götürməyə imkan verir. Qışın mülayim, şaxtasız keçməsi istehsal və məişət xərclərini azaldır.

Su ehtiyatları təsərrüfatın inkişafı və yerləşməsinə təsir edən əsas amillərdəndir. Respublikamız ildə 17-18 km$^3$ su işlədir, bunun 14 km$^3$-i kənd təsərrüfatında suvarmaya sərf olunur. Çaylarımızın potensial enerji ehtiyatı 37 mld kv-dır. Respublikamız su qıtlığı ilə üzləşən ölkələrdəndir. Su probleminin həlli yolları: çayların rejiminin tənzimlənməsi, suvarma sistemlərinin təkmilləşdirilməsi, sudan qənaətlə istifadə olunması, Xəzərin suyunun şirinləşdirilməsi və s.-dir.

Azərbaycan torpaq ehtiyatı qıt olan dövlətlərdəndir. Respublikamızın torpaq ehtiyatları 8,6 mln ha, əkin üçün yaralı torpaqlar 4,2 mln ha-dır.

Respublikamız meşə ehtiyatları ilə zəif təmin olunmuşdur. Meşələr respublika ərazisinin 11%-ni tutur. Qiymətli ov heyvanları və balıqlar iqtisadi əhəmiyyətli bioloji sərvətlərdir.

*Makroiqtisadiyyat və mikroiqtisadiyyat.*

Müasir dövrdə bütün dövlətlərin iqtisadiyyatı çoxsahəlidir. İstehsalın müəssisə səviyyəsində təşkili və idarə edilməsinə mikroiqtisadiyyat deyilir. Müəssisə səviyyəsində istehsalın yaxşı təşkili, istehsalın səmərəliliyinin yüksəldilməsi milli iqtisadiyyatın inkişafına təkan verir, şünki hər bir müəssisə, firma, şirkət və başqa istehsal müəssisələri milli iqtisadiyyatın tərkib hissəsidir. Ona görə də mikroiqtisadiyyat səviyyəsində, yəni ayrı-ayrı müəssisədə istehsalın inkişafı yaxşı təşkil olunarsa, bütövlükdə milli iqtisadiyyatın inkişafı təmin edilmiş olar.

Lakin heç də həmişə mikroiqtisadiyyat səviyyəsində fəaliyyət göstərən sahibkarlar öz fəaliyyətlərini milli iqtisadiyyatın inkişafına deyil, öz şəxsi marağına uyğun istiqamətə yönəldirlər. Bu zaman dövlətlə sahibkarlıq arasında müəyyən uyğunsuzluq əmələ gəlir. Dövlət bu cür uyğunsuzluqları müxtəlif iqtisadi və inzibati vasitələrlə aradan qaldırmalı olur.

Milli iqtisadiyyatın inkişafında ayrı-ayrı sahibkarlar mühüm rol oynasalar da, bir çox problemləri mikroiqtisadiyyat səviyyəsində həll etmək mümkün deyil. Milli iqtisadiyyatın cəmiyyət səviyyəsində götürülməsi makroiqtisadiyyatdır. Makroiqtisadiyyata da elm sahəsi kimi baxmaq olar, vəzifəsi isə iqtisadi obyektlərin bazarlarda qarşılıqlı fəaliyyətlərini öyrənməkdir.

Əgər ayrı-ayrı bazarlarda tələb və təklifi mikroiqtisadiyyat öyrənərsə, bütövlükdə, cəmiyyət miqyasında, milli bazarda tələb və təklifi makroiqtisadiyyat öyrənir. Cəmiyyət miqyasında ümumi istehsal, istehlak, yığım, investisiya və gəlirlərin göstəricilərinin təhlili makroiqtisadi əlaqələrin nizamlanmasında əsas rol oynayır.

Beləliklə iqtisadi artım və məşğulluq, imkanlar və iqtisadi mexanizmdə ziddiyyətlərin olması, dövlətin iqtisadi vəzifələri və iqtisadi siyasəti, bütövlükdə təsərrüfatı cəmiyyət miqyasında öyrənən elm bölməsinə makroiqtisadiyyat deyilir.

Makroiqtisadiyyatın əsas göstəriciləri ümumi milli məhsul, ümumi daxili məhsul və milli məhsuldur.

İqtisadiyyatın sağlamlığını ölçə bilən vacib indikator iqtisadiyyatda istehsal olunan milli məhsuldur. Bun aümumi milli məhsul deyilir. O, adətən bir il ərzində ölkə daxilində və onun xaricdə istehsal olunmuş əmtəə və xidmətlərinin ümumi həcmi və ya məcmu bazar dəyəri kimi müəyyən olunur.

Ümumi daxili məhsul göstəricisi il ərzində ölkə daxilində istehsal olunan məhsulun həcminə deyilir.

Ümumi daxili məhsulun dəyərindən amortizasiya xərclərini çıxdıqdan sonra yerdə qalan hissəyə milli gəlir deyilir. Başqa sözlə, milli məhsul ümumi daxili məhsulun tərkib hissəsi olub, 1 il ərzində yaradılan yeni dəyərə deyilir.

Müasir dövrdə ölkə daxilində ixtisaslaşma daha intensiv həyata keçirilir. Buna ən çox təsir edən elmi-texniki tərəqqidir.

*İqtisadi fikir tarixinin qısa icmalı.*

Cəmiyyətin, xüsusilə eramızdan əvvəlki quruluşun elmi cəhətdən öyrənilməsinin ilk təşəbbüsçüləri qədim yunan filosofları, o cümlədən onların ən görkəmli nümayəndələrindən biri Aristotel olmuşdur. Onun "Politika" əsərində özünün iqtisadi fikirləri və elmi prinsipləri şərh olunmuşdur.

Bir qayda olaraq bütün elmlər, o cümlədən iqtisad elmi ona zərurət yaranan zaman formalaşır. Cəmiyyət inkişaf etdikcə iqtisad elmlərinin sayı da çoxaldı.

İqtisadiyyat (iqtisad) elmi öz inkişafında bir neçə mərhələ keçmişdir. Onun ilk bünövrəsini merkantilizm deyilən cərəyan qoymuşdur. Merkantelizm sözü italyanca tacir sözündən əmələ gəlmişdir. Onların fikrincə, xarici ölkələrə daha çox mal satmaq və oradan az mal almaqla xəzinəni doldurmaq dövlətin əsas vəzifəsi olmalıdır. Dövlətin iqtisadiyyatının inkişafı xarici ticarətdən asılıdır. Onlar sərvətin mənbəyini istehsalda deyil, tədavüldə görürlər.

Növbəti tarixi elmi iqtisadi cərəyan fiziokratizm oldu.

Fiziokratiya sözü-2 yunan sözündən "fizis"-təbiət və "kratos"-hakimiyyət sözlərinin birləşməsindən əmələ gəlmişdir. Mənası "təbiətin hakimiyyəti"deməkdir. Bu cərəyanın nümayəndələrinin xidməti ondan ibarətdir ki, onlar sərvətin mənbəyini tədavüldən istehsala keçirdilər. Doğrudan da tədavül dairəsində məhsul yaranmır. Məhsul və onun dəyəri istehsalda yaranır.

İngilis klassik iqtisadçıları sübut etdilər ki, sərvətin dəyərinin əsası əməkdir. Onlar əmək-dəyər nəzəriyyəsini yaratmaqla iqtisad elminin inkişafında böyük xidmət göstərdilər.

A.Smit dəfələrlə qeyd etmişdir ki, insanların iqtisadi fəaliyyətinin başlıca amili şəxsi mənafedir. Onun iqtisadi nəzəriyyəsinin məğzini sərbəst bazar azadlığı, rəqabət azadlığı təşkil edir.

Azərbaycanlıların və başqa türk xalqlarının soy-kökündən xəbər verən "Kitabi-Dədə Qorqud" dastanlarında və başqa "Oğuznamələrdə" əks etdirilən bütün həyat səhnələri ilə yanaşı, dövrün iqtisadi və sosial şəraiti haqqında da geniş məlumatlar verilir.

"Kitabi-Dədə Qorqud" dastanlarında müxtəlif iqtisadi anlayışlar haqqında-əmtəə, pul, mübadilə, ticarətə dair mötəbər məlumatlar verilmişdir.

Azərbaycan iqtisadi fikir tarixinin inkişafında görkəmli yer tutan XII əsrdə yaşayıb yaratmış Nizami Gəncəvidir. Nizaminin "Xəmsə"si sosial və s. elmlərə dair zəngin fikirlərlə doludur. Onun iqtisadi görüşlərində əmək və sərvət mühüm yer tutur.

Azərbaycanda ictimai-nəzəri fikrin inkişafına böyük xidmət göstərənlərdən biri də Nəsrəddin Tusidir. Onun iqtisadi-nəzəri və əməli tövsiyyələri məhşur "Əxlaqi Nasiri" əsərində ifadə olunmuşdur. Onun fikrincə, bir adama lazım olan bütün maddi nemətləri özü istehsal edə bilməz. Hər bir şəxsin bu və ya digər məhsul istehsalı üzrə ixtisaslaşması vacibdir.

Əvvəlki dövrdə olduğu kimi, XIX əsrdə də Azərbaycanda peşəkar iqtisadçı şəxsiyyətlər olmamışdır. Buna görə də iqtisadi fikirləri əsasən başqa bilik sahələri mütəfəkkirlərinin əsərlərindən öyrənmək mümkündür.

"Əkinçi" qəzetinin banisi və redaktoru H.Zərdabi Azərbaycanın iqtisadi fikir tarixində böyük rol oynamışdır. "Əkinçi"nin səhifələrində həyatda əməyin əhəmiyyəti və rolu haqqında çox yazılmışdır.

Azərbaycan iqtisadi fikir tarixi başqa mütəfəkkirlərimizin və şəxsiyyətlərimizin əsərlərində də ifadə olunmuşdur. Onlardan M.Ə.Sabirin, C.Məmmədquluzadənin, Ü.Hacıbəyovun, M.Ə.Rəsulzadənin, Ə.Haqverdiyevin və başqalarının adını çəkmək olar.

*İqtisadi sistemin mahiyyəti və növləri*

Ayrı-ayrı dövrlərdə mövcud olan cəmiyyətlərdə müxtəlif iqtisadi sistemlər fəaliyyət göstərir.

Cəmiyyətdə hakim iqtisadi münasibətlər və təşkilat formaları əsasında təşəkkül tapmış iqtisadi proseslərin məcmusuna iqtisadi sistem deyilir. Müasir iqtisadi sistem "canlı" bir orqanizm kimi aşağıdakıları özündə birləşdirir: təbii və əmək resursları (ehtiyatları), mövcud mülkiyyət formaları, müxtəlif kapital ünsürləri, sahibkarlıq və zəruri idarəetmə və s. Başqa yanaşma ilə iqtisadi sistem özündə istehsal (məhsuldar) qüvvələri və iqtisadi münasibətləri birləşdirir.

Təbii resurslara mineral resurslar, torpaq sahələri, iqlim şəraiti və s. daxildir. Əmək resurslarına işləyənlərin sayı və onların mənəviyyatlarının sağlamlıq dərəcəsi və s. aiddir. Bəşər tarixində müxtəlif iqtisadi sistemlər fəaliyyət göstərib. Tarixdə indiyə kimi 1-bazar, 2-inzibati-amirlik, 3-qarışıq, 4-ənənəvi iqtisadi sistemlər fəaliyyət göstərmişdir. Bazar münasibətləri ilə səciyyələnən bu sistemin 2 tipi vardır. Onlardan biri əvvəlki azad rəqabətlə müşayiət olunan bazar iqtisadiyyatı, digəri isə müasir bazar iqtisadiyyatıdır.

Bazar sisteminin mühüm üstünlüyü istehsalın səmərəliliyinin daim yüksəldilməsidir. Bu sistemdə istehsalın maddi-texniki bazası daim yüksəlir, şəxsi və ictimai mənafelər müəyyən mənada birləşir. Bu müsbət cəhətlərlə yanaşı, mənfi cəhətlər də özünü göstərir. Əvvəla, gəlirlərin bölgüsündə qeyri-bərabərlik güclənir. İkincisi, tam məşğulluq və sabit qiymət səviyyəsinə təminat verilmir. Bununla əlaqədar bazar sisteminin müasir tipi üçün

onun bir-birindən fərqlənən  Amerika, Yaponiya, İsveçrə, Almaniya və s. modelləri meydana gəlmişdir, 3-cüsü, iqtisadiyyatın demokratikləşməsi üçün meydan yaranır.

2-cisi, inzibati-amirlik sistemidir. Bu sistemdə iqtisadiyyatın idarə olunmasındakı inzibatçılıq təkrar istehsal fazaları arasındakı əlaqəni pozur, insanların mülkiyyət hüququnu əllərindən alır.

İnzibati-amirlik sisteminin mənfi cəhətləri aşağıdakılardır: 1-cisi; ictimai mülkiyyət pərdəsi altında bütün istehsal vasitələrinin və onun nəticəsinin dövlət mülkiyyətində mərkəzləşməsi; 2-cisi mərkəzləşdirilmiş iqtisadi planlaşdırılmanın aparıcı olması; 3-cüsü, yaradılmış nemətlərin bərabərçilik şəklində paylanması. 4-cüsü, insanın iqtisadi fəallığının və maddi marağının reallaşması yollarının məhdudlaşdırılması; 5-cisi, resursların başlıcası olaraq, hərbi sənaye kompleksinin inkişafına yönəldilməsi.

İnzibati-amirlik sisteminin nöqsanı eyni zamanda planın nəyin hesabına olursa, olsun yerinə yetirilməsi tələbidir. Müəssisələr məsrəfləri nəzərə almadan planı yerinə yetirməyə çalışırlar. Bu sistem nəinki iqtisadiyyatın inkişafını tənəzzülə uğradır, eyni zamanda insanların mənəviyyatını pozur.

İqtisadi sistemlərin bir forması da qarşıq iqtisadi sistemdir. Bu sistem ilk növbədə bazar və inzibati sistemlərin qarşığı kimi fəaliyyət göstərir. Deməli, bu sistem sırf xalis formada çıxış etmir. Dünyanın bir çox ölkələri qarışıq iqtisadiyyat sisteminə malikdirlər. Bu sistemdə sdahibkar iqtisadiyyatına üstün təminat verilməsi ölkə iqtisadiyyatını daha çox demokratikləşdirir və gəlirlərin bölgüsünə nisbətən ədalətin təmin olunmasına imkan yaradır.

Azərbaycanın milli iqtisadiyyatında indiki keçid dövründə qarışıq sistem mövcuddur. Qarışıq iqtisadi sistemdə resursların bölgüsü də müxtəlif şəkildə həyata keçirilir. Bu sistemdə resursların bölgüsündə qarışıq təsərrüfat formaları, yəni xüsusi sahibkarlar, dövlət başqa formalar iştirak edir.

İqtisadi sistemlərin formalarından biri də ənənəvi iqtisadiyyatdır. Ənənəviiqtisadiyyat dedikdə, milli adət və ənənələrə əsaslanaraq iqtisadiyyatın inkişaf etdirilməsi başa düşülür. Bu sistemdə keçmişdən miras qalmış adətlər bəşəri sivilizasiyalardan irəli gələnləri texniki yeniliklərlə əlaqələndirir. Resursların və gəlirlərin bölgüsü adət və ənənələr qaydasında aparılırş İqtisadi fəaliyyət milli ənənələrə tabe edilir.

İnsan cəmiyyətinin təkamülü ilə ta qədim zamanlardan müasir dövrə qədər iqtisadi sistemlər tədriclə dəyişmiş və təkamül yolu ilə biri-digərini əvəz etmişdir. Bu proses istehsal (məhsuldar) qüvvələrinin tarixi dövrlər səpgisində irəliləməsi ilə baş vermişdir.

*Mülkiyətin formaları*

Mülkiyyətin aşağıdakı müasir formalarını göstərmək olar.

1. Xırda əmtəə istehsalı ilə səciyyələnən mülkiyyət forması. Bu mülkiyyət formasında muzdlu əməkdən əsasən istifadə edilmir. Bu mülkiyyət formasına aid olan təsərrüfat subyektləri hüquqi şəxs deyil, fiziki şəxs kimi fəaliyyət göstərirlər.

2.Xüsusi mülkiyyət forması. Bazar iqtisadi sistemində bu mülkiyyət formasının əsas cəhəti ondan ibarətdir ki, fərdi sahibkar əsaslı vəsait sərf etməklə kiçik, orta, iri tipli müəssisə təşkil edir.

3. Dövlət mülkiyyəti forması. Adətən dövlət mülkiyyətində xüsusi aparıcı müəssisələr, sahələr saxlanılır. Bunlar hər bir ölkənin öz mənafeyi baxımı ilə müəyyən edilir.

Dövlət müəssisələrində əldə edilən gəlir dövlət büdcəsinə daxil olur. Ona görə ki, istehsal vasitələri dövlət mülkiyyətidir. İnkişaf etmiş ölkələrin müasir nümunəsi göstərir, dövlət mülkiyyətində əsas istehsal fondlarının xüsusi çəkisi orta hesabla 5-30% arasındadır. Dövlət mülkiyyətinə aid istehsal müəssisələri hüquqi şəxslərdir.

4. Kooperativ mülkiyyət forması. Bu həm maddi, həm də qeyri-maddi dairələrə aid hər cür kooperativlər daxildir. Kooperativlərdə əmlaklardan, istehsal vasitələrindən birgə istifadə olunması və mənimsənilməsi həyata keçirilir. Onlar hüquqi şəxslərdir, öz nizamnamələri əsasında fəaliyyət göstərirlər.

5. Səhmdar cəmiyyəti mülkiyyət forması. Bu mülkiyyətə səhmlər yolu ilə təşkil olunmuş müəssisələr daxildir. Səhmlərin satılması həm açıq, həm də qapalı aparıla bilər. Səhmlər hamıya satılırsa bu açıq, yalnız onları yaradanlara satılırsa qapalı qayda kimi qiymətləndirilir.

6. Bələdiyyə mülkiyyət forması. Burada əsas səciyyəvi hal odur ki, mülkiyyətin obyektləri şəhərin, rayonun, qəsəbənin bələdiyyə idarəçiliyi tabneliyində olur.

İndi yeni Azərbaycan şəraitində belə bir mülkiyyət formasının yaranması zərurəti meydana çıxmışdır. Məhz ona görə də Azərbaycanın yeni Konstitusiyasında bələdiyyə mülkiyyətinin yaradılması nəzərdə tutulub. Bələdiyyə mülkiyyəti hüquqi şəxsdir. Şəxsi və ya fərdi mülkiyyət forması. Buraya şəxsi yaşayış evləri, ev əşyaları və əmlakları, adamların pul vəsaitləri və qiymətli kağızları daxildir. Bu formaya eyni zamanda şəxsi istehlak, bilavasitə ailənin tələbatı üçün istifadə edilən məhsullar da daxil edilə bilər.

Qarışıq mülkiyyət forması. Bu mülkiyyət forması onu yaradanların əmlaklarının könüllü birləşdirilməsi əsasında formalaşır. Burada xarici hüquqi şəxslər də iştirak edə bilərlər. Bu cür mülkiyyət formasının obyektləri konsern, təsərrüfat cəmiyyətləri, konsersium kimi birləşmələr adı ilə fəaliyyət göstərir. Bu mülkiyyət formaları yeni Azərbaycan gerçəkliyində fəaliyyət və ya göstərməli olacaqdır.Mülkiyyətin formaları içərisində xüsusi mülkiyyət forması digərlərindən daha mütərəqqidir. Ona görə ki, o, itisadiyyatın inkişafında hərəkətverici qüvvəyə malik olan maddi marağı başqalarından daha yaxşı təmin edir.

*Sahibkarlıq və onun mahiyyəti*

İstehsalın amilləri arasında sahibkarlıq fəaliyyətinin özünəməxsus rolu vardır.

Tarixi təcrübə ilə əlaqədar olaraq sahibkarlığın ümumiləşdirilmiş cəhətləri mövcuddur. Onlar aşağıdakılarla səciyyələnir.

Xüsusi istedadı, qabilliyəti, bacarığı olmayan şəxslərdə sahibkar olmaq cəhəti heç vaxt baş tuta bilməz. Belə cəhd, tələbatı ödəyə bilməyən məhsul istehsal etməyə bərabərdir.

Yaradıcılıq, təşəbbüskarlıq, problemləri həll edə bilmək, güzəştə getmək və adamlarla dil tapmaq qabiliyyəti ilə bağlı olan şəxsi keyfiyyət özündə birləşdirən şəxslərdən yalnız sahibkar ola bilər. Sahibkar fərdlərin mühüm cəhətlərindən biri də müxtəlif iqtisadi nəzəri əməli fikirləri öyrənmək, müşahidə etmək, onların müsbət tərəflərindən öz fəaliyyətlərində istifadə etməkdən ibarətdir.

Sahibkarları möhtəkirlər və menecerlərlə qarışdırmaq olmaz. Bunların arasında istehsalın təşkili və idarəetmə müəyyən ümumilik olsa da aralarında mühüm fərqlər vardır. Sahibkarlıq onlara nisbətən daha geniş anlayışdır.Onlar bəşəriyyətə maddi nemətlər bolluğu gətirən islahatçılardır. Sahibkar bu gün ilə gələcək arasında əlaqələndirici rol oynayır. Yəni müasir dövrdə mövcud olan elm və texnikanın yeniliklərini istehsala tətbiq edir, idarəetmənin ən mütərəqqi metodunu mənimsəyir və gələcək nəslə öyrədir.

Başqalarının görə bilmədiyi, işə barmaqarası baxan şəxslərdən fərqli olaraq, sahibkar hər bir xırda şeyi görmək və ondan düzgün nəticə çıxarmaq qabiliyyətinə malik olmalıdır. Geniş mənada sahibkarlıq yeni biznes sahələrinin yaradılmasına, mövcud müəssisələrin yenidən qurulmasına, yeni texnologiyanın tətbiq edilməsinə, ictimai və siyasi problemlərin həllinin nəticəsindən asılı olmayaraq bütün yenilikçi və yaradıcı təşəbbüslərə istinad etməlidirlər. Sahibkarlar bazara yeni əmtəə və ya xidmət növü çıxarırlar. Onlar ehtiyatları səfərbər edir, riskə gedir, müvafiq məhsulların istehsalını təşkil edir və bazara çıxarırlar.

Sahibkarlara məxsus olan keyfiyyətlərdən biri də yeni ehtiyat mənbələrinin istifadəsində yeni üsullar axtarıb tapmaqdır. Bu gün sahibkar sadəcə olaraq əlavə neft, təbii qaz və nadir minerallar kimi yeni ehtiyat mənbələrini aşkar etmir, o, daha artıq işlər görür. Başqa sözlə, bu sahələrə ən yeni texnikanı tətbiq etməklə, yeni üsul və metodlardan istifadə etməklə həmin məhsulların istehsalını artırırlar.

Sahibkarların böyük xidmətlərindən biri yeni texnologiyanı təkmilləşdirməkdir. Məlumdur ki, azad rəqabətdə qalib gəlməyin əsas vasitələrindən biri istehsala ən müəsir texnikanın tətbiq edilməsi və yaxud təkmilləşdirilməsidir. Dövlətlərin tərəqqisi qabaqcıl texnoloji yeniliklərdən çox asılıdır. Yeni ideyalar az-çox sahibkar tərəfindən irəli sürülür, onu istehsala tətbiq edir və yeni məhsulları bazara çıxarmaq üçün lazım olan hər şeyi edir.

Sahibkarlar həm də mövcud olan müəssisələri yenidən qururlar. Onlar istehsal xərclərini azaltmağın və istehsalın səmərəliliyinin yüksəldilməsinin daha yaxşı yollarını daim axtarır və tapa bilirlər.

Sahibkarlığın bir neçə formaları vardır. Bunlardan biri biznesdir. Risklə bağlı təşəbbüs yeni biznesin başlanğıcıdır. Yəni onun müflisləşmə ehtimalı gəlir əldə etmək ehtimalından daha çox olur.

Sahibkarlığın bir qolu da sahədaxili sahibkarlıqdır. Burada sahibkar sahənin məhsulunu yaxşılaşdırmağı, onun paylanma mexanizmini daha səmərəli etməyi bacaran və ya yeni bazar strategiyasının yollarını görən bir iş adamıdır. Sahədaxili sahibkarlıq tələb edir ki, dəyişiklik yaratmaqda işçilərə sərbəstlik verilsin və onların belə hərəkətləri mükafatlandırılsın.

Öz psixoloji təbiətinə görə sahibkarlar başqa adamlardan fərqlənirlər. Sahibkarları başqalarından fərqli olaraq aşağıdakı cəhətlər də xarakterikdir: 1) müstəqil olmaq arzu; 2) müvəffəqiyyətə nail olmaq ehtirası; 3) könüllü şəkildə riskə getməyə hazır olması; 4) özlərinə inamın daha çox olması.

Sahibkarlıqla biznes fəaliyyəti ayrılmazdır. Risklə bağlı təşəbbüs biznesin başlanğıcıdır. Bu o deməkdir ki, hər hansı şəxs istehsal, ticarət və sair sahələrdə sahibkarlığa başlayarkən risk edir. Sahibkar, iqtisadiyyatın bütün sahələrində kapital qoyuluşu üçün əlverişli imkanlar yaradan və iqtisadi inkişafı sürətləndirən yenilikçidir. Məhz buna görə də yenilikçi sahibkar makroiqtisadiyyatda mərkəzi simadır.

İşsizlik böyük sosial problemdir. İqtisadi artım adətən, ölkədə adambaşına düşən ümumi daxili məhsulun artımı ilə müəyyən edilir. Belə artım yeni ehtiyat mənbələrinin kəşf edilməsi və ya istifadə olunan mənbələrin səmərəliliyinin artırılmasının nəticəsində ola bilər. Bu işlərin hər ikisini sahibkarlıq fəaliyyəti tələb edir. Sahibkarlıq fəaliyyəti təşkilati-hüquqi formalara malikdir.

*Azərbaycanda azad sahibkarlıq və onun növləri*

Azərbaycan Respublikasında azad sahibkarlığın yaranması və inkişafını təmin edən əsas məsələ istehsal vasitələrinin, o cümlədən torpağın özəlləşdirilməsinin, dövlətsizləşdirilməsinin başa çatdırılmasıdır.

Bazar iqtisadiyyatına keçmək və onu inkişaf etdirməyin əsas yolu ən əvvəl, xüsusi bölmənin, azad sahibkarlığın inkişafıdır. Sahibkarlığın inkişafından söhbət gedərkən, onun ümumi iqtisadiyyatda xüsusi çəkisi və hər bir sahibkar fəaliyyətinin həcmi, ölçüsü optimal dərəcədə olmalıdır.

Azərbaycan Respublikasında azad sahibkarlıq fəaliyyətinin formalaşması özünəməxsus xüsusiyyətlərə malikdir və problemlərlə qarşılaşması təbii və qanunauyğun haldır. İnzibati amirlik sistemindən bazar iqtisadiyyatına keçmək istəyən hər bir dövlət özünün sahibkarlarını formalaşdırmalıdır. İnkişaf etmiş azad sahibkarlıq ölkələrində sahibkarlıq fəaliyyəti sadədən mürəkkəbə doğru uzun və təbii inkişaf yolu keçdiyinə görə bu proses asan olmuşdur.

Özəlləşdirmə, yəni istehsal vasitələrinin xüsusi, özəl və digər müxtəlif mülkiyyət formalarına çevrilməsi yeni iqtisadi sistemin bərqarar olmasına, iqtisadiyyatın demokratikləşməsinə yol açmaq üçün qüdrətli vasitədir. Özəlləşdirmə həyata keçirilərkən müəssisə və obyektlərin hansının nə vaxt özəlləşdirilməsinin müəyyən edilməsi də əhəmiyyət kəsb edir. Azərbaycanda özəlləşdirmənin birinci mərhələsində bu proses ən çox qeyri-istehsal dairəsində baş vermişdir. Başqa sözlə, sahibkarlığın növləri içərisində maliyyə-bank, ticarət, xidmət və kiçik müəssisələr üstünlük təşkil etmişdir.

Azərbaycanda sahibkarlığın inkişafı iqtisadi azadlığa geniş yol açır. İqtisadi azadlıq sahibkarın iqtisadi ehtiyatlara malik olmaq hüququ və bu əsasda müəyyən məhsul istehsalını təşkil etmək, müxtəlif xidmət sahələri ilə məşğul olmaq, kommersiya fəaliyyəti göstərmək, müvafiq müqavilələr bağlamaq deməkdir. Qərbin məhşur iqtisadçısı A.Smit stimulu cəmiyyətin istehsal qüvvəsi adlandırmışdır. O, göstərmişdir ki, nə komanda, nə əmr deyil, yalnız stimul güclü hərəkətverici qüvvədir. Sahibkarlıq fəaliyyətinin ilk növbədə istehsal istiqamətində inkişafı təbii haldır və onun öz mahiyyətinə daha çox uyğun gəlir. Bu, bazar iqtisadiyyatının bazis təməli üzərində inkişaf etdiyini sübut edir.

Deməli, əsas vəzifələrdən biri sahibkarlıq fəaliyyətini istehsal sahələrinə yönəltməkdir. Bunun üçün istehsal sahəsində fəaliyyət göstərmək istəyən şəxslərə ilk dövrlərdə imtiyazlar verilməsi müsbət rol oynayır.

Azərbaycanda sahibkarlıq fəaliyyəti tam formalaşana qədər respublikanın mövcud istehsal və təbii potensialı, tarixi və milli xüsusiyyətləri, sosial-iqtisadi və coğrafi-siyasi şəraiti nəzərə alınmalıdır. Azərbaycan iqtisadiyyatının dünya təsərrüfatına qovuşması və onun burada tutacağı yer nəticə etibarilə sahibkarlığın inkişafından və azad rəqabətin fəaliyyətindən asılı olacaqdır. Xarici bazarlara yol açmaq, xarici sahibkarlarla rəqabətə girmək qabiliyyəti olan milli sahibkarların yetişdirilməsi lazımdır.

Azərbaycan dövlətinin müstəqilliyini təmin edən istehsal sahələrini müəyyən etmək və sahibkarlığın bu istiqamətdə inkişafına kömək zəruridir. Buraya sahibkarlıq fəaliyyətinin hüququ bazasının, kiçik sahibkarlığın inkişafına xüsusi şərait yaradılması, xarici sahibkarların imkan və təcrübələrindən istifadə üçün əlverişli şəraitin yaradılması daxildir. Beləliklə, bu çətin təbii prosesin həyata keçirilməsində dövlətin iştirakı və ona kömək etməsi, düzgün istiqamət verməsi obyektiv zərurətdir. Bu məqsədlə "Azərbaycan Respublikasında

sahibkarlığın inkişaf sahəsində dövlət siyasətinin əsas istiqamətləri" adlı qanun işlənib hazırlanmış və Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq edilmişdir. İndiki şəraitdə Azərbaycandan xarici ölkələrə axın çoxaldığı dövrdə respublikada sahibkarlıq fəaliyyətinin genişləndirilməsi böyük əhəmiyyət kəsb edir.

Bəzi istehsal sahələrində xüsusi sahibkarlar fəaliyyət göstərmək istəmirlər. Bu sahələrdə istehsalın inkişafını dövlət öz üzərinə götürməyə məcbur olur.

*Ekologiya. Ətraf mühitin qorunması.*

Ekologiya canlı orqanizmlərin və onları əhatə edən təbiətin qarşılıqlı münasibətləri haqqında məlumat verən elm sahəsidir.

Cəmiyyət və təbiət arasındakı qarşılıqlı əlaqədə tarazlığın pozulması böyük təhlükədir. Ətraf mühitin qorunması təkcə biologiya elminin yox, iqtisadiyyat, fəlsəfə, coğrafiya və başqa elmlərin də maraq dairəsinə çevrilmişdir. Belə bir şəraitdə ekologiya konkret bir elm sahəsinə çevrildi.

Beləliklə, ekologiya təbiətlə cəmiyyət arasında qarşılıqlı ümumi qanunauyğunluğu, ətraf mühitin mühafizəsini, təbii resurslardan məqsədəuyğun qaydada və səmərəli öyrənən elmdir. Ətraf mühitə təsirinə görə 3 amil bir-birindən kəskin surətdə fərqlənirlər.

Abiotik amilə cansız aləm daxildir. Məsələn, qayalar temperaturun dəyişməsinin təsiri ilə dağılır, su və küləyin təsiri ilə torpaq erroziyaya uğrayır, güclü külək bitkiləri məhv edir və s. ətraf mühitə pis təsir göstərir.

Bioloji amil canlı aləmə, yəni bitki və heyvanat aləminə təsir göstərir. Bitki kökləri ilə torpağı möhkəmləndirir. Heyvanlar bitkinin tozlanmasında iştirak edir və onların toxumunu yayır.

Antropoloji amil – insan və onların istehsal fəaliyyəti ilə əlaqədar təbiətə göstərilən təsiridir. İnsan təbiətə həm müsbət, həm də mənfi təsir göstərə bilər. Beləki, su anbarlarının tikilməsi, suvarma kanallarının çəkilməsi, meşə zolaqlarının salınması və s. Işlər görməklə insanlar ölkəni laləzara çevirə bilər. Bunun əksinə olaraq, onlar atmosferi, suyu, torpağı çirkləndirmək, meşələri qırmaq, faydalı qazıntılardan səmərəsiz istifadə etmək və s. Mənfi fəaliyyətlə təbiətlə cəmiyyət arasında qarşılıqlı əlaqənin pozulmasını son həddə çatdırırlar.

Təbiətlə cəmiyyət arasında qarşılıqlı əlaqə və asılılıq daim inkişaf etmiş və öz inkişafında bir neçə mərhələdən keçmişdir.

Birinci mərhələ bəşər tarixinin ilk mərhələsini, xronoloji olaraq ibtidai icma quruluşunu əhatə edir. Bu mərhələdə insan çox sadə əmək alətlərindən istifadə etmişdir. Ətraf mühitin dəyişdirilməsi kortəbii baş vermişdir.

Təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsi sonrakı inkişaf mərhələlərində genişlənmişdir. Bu dövrdə insanların təbiətə təsiri əvvəlki dövrə nisbətən artır. Ona görə ki bu zaman əmək alətləri xeyli təkmilləşir və əhalinin sayı artır.

Maşınların yaranması ilə təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsində yeni mərhələ başlanmışdır. Maşınlı sənaye istehsalı azad sahibkarlığın bərqərar olmasının maddi əsasını təşkil etmişdir. Maşın texnikası manufaktura emalatxanalarını sahibkar fabrikləri ilə əvəz etmişdir.

Maşın texnikasına əsaslanan insan təbiətdən daha çox istifadə etməyə başladı, təbiət üzərinə də yeni güclü vasitələrlə hücum etdi. Təbiətdən insanın asılılığı, əvvəlki dövrə nisbətən azaldı.

Müasir elmi-texniki inqilab dövründə təbiət və cəmiyyət arasındakı münasibət öz inkişafının yeni mərhələsinə qədəm qoyur. Müasir dövrdə insanın təbiətə təsiri sürətlə artır və qlobal xarakter daşıyır. İnsanın təbiətə təsirinin miqyasının genişlənməsi və güclənməsinin 3 səbəbi var: 1. Fasiləsiz olaraq bütün növ istehsalın həcmi artır, xammala ehtiyac çoxalır. Tullantılar da artır, deməli ətraf mühitin çirklənməsi də artır. 2. Əhalinin miqdarı daim artır. 3. İnsanın təbiətə münasibəti əvvəlkindən fərqli olaraq dəyişir, təbiətdən daha çox məhsul almaq naminə kimyəvi maddələrdən istifadə edilir. Nəticədə atmosferdə karbon qazı çoxalır, meşələrin sahəsi və faydalı heyvanların sayı azalır.

Bu dövrün səciyyəvi xüsusiyyəti avtomatlaşdırılmış əmək alətlərinin yaranması və istehsala tətbiq edilməsidir.

Ekoloji problem qlobal problemdir. Təbiətlə cəmiyyət arasındakı maddələr mübadiləsindəki yaranan uyğunsuzluq ekoloji problemdə əks olunur. Ekoloji problem, cəmiyyət üçün lazım olan təbii maddələrin tükənməsi və təbii mühitin hədsiz çirklənməsi nəticəsində ortaya çıxan mürəkkəb məsələlər kompleksinə deyilir. Müasir ekoloji problem 3 tərkibin vəhdəti ilə səciyyələnir. 1-si təbii ehtiyatların tükənməsi problremidir. 2-cisi ətraf mühitin istehsal və istehlakın qalıq məhsulları ilə, tullantılarla çirklənməsidir. 3-cüsü, nadir təbii sistemlərin pozulmasından, ayrı-ayrı heyvan və bitki növlərinin tələf olmasından və s. ibarətdir. Bu 3 problem təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsində yaranan ekoloji problemdir.

Təbiətin çirklənməsinin əsas mənbəyi istehsal və istehlak tullantılarının ətraf mühitə atılmasıdır. İstehsalın həcmi genişləndikcə və əhalinin sayı artdıqca ətraf mühitə atılan tullantıların da miqdarı artır. Bunun qarşısının alınmasının əsas yolu tullantısız və ya az tullantılı texnologiya tətbiq etməkdir. İnkişaf etmiş ölkələrdə buna müəyyən dərəcədə nail olunmuşdur.

Ekoloji problemin yaranmasına səbəb olan mənbələrdən biri də nəqliyyat vasitələrinin, xüsusilə avtomobil nəqliyyatının sürətlə inkişaf etməsidir. Havaya zərərli maddələrdən buraxılmasının çoxu avtomobil nəqliyyatının payına düşür.

Ekoloji tarazlığın pozulmasına çox böyük təsir göstərən amillərdən biri də kənd təsərrüfatı istehsalının intensivləşdirilməsinin "sürətləndirilməsidir".

Təbiətə qarşı amansız olmaq insan həyatına, gələcək nəslə qəsd etmək kimi qiymətləndirilir.

*Azərbaycan iqtisadiyyatı Sovet dövründə.*

Bakıya yeridilmiş işğalçı XI Ordunun təzyiqi ilə, 1920-ci il aprelin 28-də ADC-ni yıxdı və Azərbaycan Sovet Respublikasını elan etdi. Rusiyanın müstəmləkəsi olaraq 70 il bu vəziyyətdə yaşamasına baxmayaraq, Azərbaycanın iqtisadiyyatı yüksəlmiş, sosial iqtisadi həyatı yaxşılaşmışdır. Sovet dövründə Azərbaycan iqtisadiyyatının inkişafındakı nəaliyyətlərinin başlıca səbəblərindən biri onun ərazisindəki təbii sərvətlərin daha ətraflı öyrənilməsi olmuşdur. Müəyyən edilmişdir ki, Azərbaycan ərazisi müxtəlif təbii ehtiyatlarla çox zəngindir. Onsuz da neft və qaz ehtiyatları ilə artıq çoxdan məhşur olan Respublikanın başqa sərvətlərlə də zəngin olması faktı onu həmişə Sovet dövlətinin iqtisadi siyasətinin diqqət mərkəzində saxlamaq strategiyasının başlıca məqsədi idi. Bu müddət ərzində sənaye məhsullarının ümumi həcmi 280 dəfədən çox artmışdır. 1940-cı ildə azərbaycan neft istehsalı özünün ən böyük istehsal səviyyəsinə çatmış 22,2 mln ton neft hasil olunmuşdur. Dəmiryol şəbəkəsinin uzunluğu 1920-ci ilə nisbətən 2,5 dəfə artaraq 2067 km-əçatmışdır. Azərbaycanın təsərrüfat strukturunda İkinci Dünya müharibəsindən sonra müəyyən irəliləmələr baş verdi. Həmin dövr ərzində mövcud sənaye sahələri-yüngül, yeyinti sənayesi, yanacaq, neft-qazma istismarı avadanlıqları və başqaları artmış və xeyli təkmilləşdirilmişdir. Neft-kimya, elektrotexnika, əlvan metallurgiya və başqa yeni sahələr meydana gəlmişdir. 1970-ci ildən sonra respublikanın sənaye və k/t-da irəliyə doğru ciddi dəyişikliklər yaransa da uzun müddət ətalətə uğramış sosializm təsərrüfatı dünya tələbləri səviyyəsinə qalxa bilmirdi. Ümumiyyətlə, 1990-cı ilə qədər Azərbaycanın təsərrüfat strukturu əhəmiyyətli dərəcədə dəyişmiş, ənənəvi istehsal sahələri ilə fərqlənmişdir.

*Respublikanın istehsal və sosial infrastrukturlarının vəziyyəti.*

Aərbaycanın sosial-iqtisadi həyatında mühüm əhəmiyyətli olan sahələrdən biri də onun istehsal və sosial infrastrukturlarıdır. "İnfrastruktur" latın sözü olub "infro"-aşağı, alt, "struktura"-yerləşmə mənasında işlənir. İnfrastruktur anlayışı öz hərfi mənasına görə iqtisadi sistemin əsası, onun daxili quruluşu kimi başa düşülür. Müasir iqtisadi inkişaf baxımından infrostruktur anlayışı dərin məzmuna malikdir. Ən ümumi mənada infrastruktur dedikdə, həm bütövlükdə iqtisadiyyatın, həm də onun ayrı-ayrı bölmələrinin normal fəaliyyəti üçün

əlverişli şərait yaradan və bu məqsədə xidmət edən sahələrin məcmusu başa düşülür. Azərbaycanda infrastrukturun əsas cəhətlərindən biri onun fərdi yox, kollektiv və ictimai tələbatların ödənməsinə xidmət etməsidir. Bundan əlavə iqtisadiyyatın infrastrukturu həm də ictimai təkrar istehsalın bütün fazaları; istehsal, bölgü, mübadilə və istehlak arasında qarşılıqlı əlaqələrin formalaşmasına yönəlmişdir. İnfrastrukturlar 2 qrupa ayrılır: 1) istehsal 2) sosial

Makroiqtisadi səviyyədə istehsal və sosial infrastrukturlar bir-birindən fərqləndirilir. İstehsal infrastrukturuna ölkənin maddi istehsalı ilə bilavasitə əlaqədar olan sahələr-elektroenergetika, rabitə, nəqliyyat, elmi-texniki informasiya və s. aid edilir. Sosial infrastruktur iş qüvvəsinin təkrar istehsalı və ölkə əhalisinin həyat fəaliyyəti üçün normal şəraitin yaradılmasına xidmət edir. Buraya tədris, səhiyyə sosial təminat və s. kimi sahələr daxildirlər. Bu deyilənlərlə yanaşı iqtisadi ədəbiyyatda bütövlükdə iqtisadiyyatın konkret sahələrini xarakterizə edən infrastruktur anlayışı da işlədilir. Bu baxımdan məsələn, nəqliyyat sahəsinin infrastrukturuna- körpülər, kanallar, tünellər, yollar və s; səhiyyənin infrastrukturuna-xəstəxanalar, poliklinikalar, tibbi diaqnostika mərkəzləri və s; tədrisin infrastrukturuna-ali və orta ixtisas məktəbləri və s. aid edilir.

Bütövlükdə infrastrukturun məzmunu haqqında deyilənlər bazar iqtisadiyyatının müstəqil quruluşu kimi fəaliyyət göstərən bazar infrastrukturu anlayışına da aiddir. Beləki, bazar infrastrukturu dedikdə iqtisadiyyatın ümumi quruluşunun bazar sisteminə xidmət edən və onun fəaliyyəti üçün zəruri şərait yaradan tərkib hissəsi başa düşülür.

Hazırda Azərbaycanın bütün sahələrində (nəqliyyat sahələrinin infrastrukturu, səhiyyənin infrastrukturu, tədrisin infrastrukturu və s.) infrastrukturun inkişafı çox çox sürətlə gedir. Bu Azərbaycanda iqtisadiyyatın güclü inkişafını göstərir.

*Azərbaycan üçün bazar iqtisadiyyatı modelinin seçilməsi.*

Bazar iqtisadiyyatı modelinin 3 əsas növü mövcuddur:

1. Liberal model. 2. Sosial yönümlü bazar iqtisadiyyatı modeli. 3. Bazar iqtisadiyyatının sosial-demokratik modeli.

**1. Liberal model** aşağıdakı cəhətləri ilə səciyyələnir:

a) xüsusi mülkiyyətin iqtisadiyyatda çəkisinin çox olması və üstün mövqe tutması;

b) təsərrüfat qanunvericiliyinin bazar subyektlərinin tam sərbəstliyini təmin etməklə onların dövlət tərəfindən ola biləcək təsirindən qorunması;

v) dövlət tənzimlənməsinin məhdud xarakter daşıması və əsasən makroiqtisadi prosesləri əhatə etməsi;

q) əhalinin bir çox zəruri yaşayış problemlərinin həll edilməsindən dövlətin təcrid edilməsi;

d) sosial məqsədlərin həyata keçirilməsinə yönəldilən xərclərin qalıq xarakter daşıması; onların işsizlərə və səviyyəsi ən aşağı olan təbəqələrə yönəldilməsi;

e) ümumi milli məhsulda dövlət büdcəsinin xüsusi çəkisinin az olması; sosial məqsədlərə yönəldilən dövlət investisiyalarının və dövlət xərclərinin çəkisinin aşağı olması.

Bu model az və çox dərəcədə xalis formada XX əsrin əvvəllərindən 20-ci illərin sonuna qədər ABŞ-da mövcud olmuşdur. İndinin özündə də ABŞ iqtisadiyyatı bu modelə çox yaxındır.

**2.Sosial yönümlü bazar** iqtisadiyyatı modelinin əsas cəhətləri aşağıdakılardır:

a) çox və ya az dərəcədə dövlət sektorunun olduğu qarışıq iqtisadiyyatın mövcud olması;

b) nəinki makroiqtisadi proseslərin, hətta bazar subyektlərinin fəaliyyətlərinin ayrı-ayrı sahələrinin dövlət tərəfindən tənzimlənməsi;

v) dövlət tərəfindən əhaliyə qeyri-istehsal sahəsindəki xidmətlərin pulsuz göstərilməsi, ailə gəlirlərindən asılı olmayaraq cəmiyyətin bütün üzvlərinin bu xidmətlərdən istifadə etməsi üçün sosial təminat yaradılması, hər bir vətəndaşa pulsuz təhsil, səhiyyə xidməti alması hüquqlarının həyata keçirilməsinə təminat verilməsi;

q) tənzimlənmənin azad rəqabətin saxlanmasına, kapitalların olduqca az əllərdə cəmlənməsinin qarşısının alınmasına, yeni təsərrüfat obyektlərinin yaradılmasına yönəldilməsi;

d) işsizlərin sayını minimum həddə çatdırmaqla əhalinin məşğulluğunun tənzimlənməsi;

e) ümumi milli məhsulda dövlət büdcəsinin böyük hissəyə malik olması;

j) iqtisadiyyatın büdcə-maliyyə siyasəti ilə deyil, kredit-pul siyasəti vasitəsilə tənzimlənməsi.

Bazarın bu modeli İkinci Dünya müharibəsindən sonra L. Erxard tərəfindən həyata keçirilən iqtisadi islahatlar nəticəsində meydana gəlmişdir. Ona görə də bu modeli çox vaxt alman və neoliberal model adlandırırlar.

**3. Sosial-demokrat modeli.**

Bu modelin əsas cəhətləri sosial yönümlü bazar iqtisadiyyatı modeli ilə eynidir. Buna baxmayaraq, bu modelin öz xüsusiyyətləri vardır.

Sosial-demokrat modeli üçün dövlət mülkiyyətinin həddən artıq çox olması xarakterikdir. Bazar iqtisadiyyatının bu modeli əsasən İsveçdə öz əksini tapmışdır və ona görə də onu çox vaxt İsveç modeli adlandırırlar. Tarixi inkişafın müxtəlif mərhələlərində bu modelin bir çox cəhətləri digər Skandinav ölkələrində, eləcədə İspaniyada, Portuqaliyada,

Yunanıstanda öz əksini tapmışdır. Bazarın İsveç modeli aşağıdakı cəhətlərlə xarakterizə olunur:

a) əmək münasibətlərinin ümumi milli, ümumi dövlət səviyyəsində tənzimlənməsi (tarif dərəcələrinin, kollektiv müqavilələrin müəyyən edilməsi);

b) dövlətin həyata keçirdiyi sosial siyasətin əhalinin gəlirləri üzrə təbəqələşmənin azaldılmasını təmin etməsi;

v) ümumi milli məhsulda dövlət büdcəsinin çox olması;

q) dövlətin məşğulluq siyasəti, əsasən işçilərin ixtisaslarının artırılması və yenidən hazırlanması hesabına işsizlərin sayını minimum həddə çatdırmağa yönəldilməsi.

Bazar iqtisadiyyatının müxtəlif modelləri arasında Azərbaycan üçün Alman modelinin – sosial yönümlü bazar iqtisadiyyatı modelinin seçilməsi daha məqsədəuyğundur. Bu modelin bir çox xarakterik xüsusiyyətlərini Azərbaycan reallığında öz əksini tapır.

Birinci- həqiqətən Azərbaycanda müxtəlif mülkiyyət və təsərrüfat formalarına əsaslana qarışıq iatisadiyyatın formalaşması prosesinin getməsi, burada xüsusi və dövlət mülkiyyəti formalarının səmərəli fəaliyyəti üçün bərabər təsərrüfatçılıq mühitinin yaradılması;

Ikinci – azərbaycanda bu gün iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi prosesinin çox güclü olması, ilk növbədə iqtisadiyyatın böhran vəziyyətindən çıxarılması, iqtisadi artımın təmin edilməsi, iqtisadiyyatda struktur dəyişikliklərinin həyata keçirilməsi,məhsulların həm daxili, həm də xarici bazarlarda rəqabət qabiliyyətli olması üçün əlverişli şərait yaradılması;

Üçüncü – tənzimlənməni nəinki makroiqtisadi səviyyədə, hətta bir çox hallarda bazar subyektlərinin fəaliyyətlərinin hələ normal bazar təsərrüfatının tam mənada yaranması ilə əlaqədar, mikroiqtisadi səviyyədə tənzimlənməsinin həyata keçirilməsi;

Dördüncü – xalqımızın mentaliteti, tarixən ictimai ənənələrin bizdə güclü olması, bir çox sosial problemlərin tərəfindən həll olunması ənənələrinə alman modelinin sosial-siyasətinin daha çox uyğun gəlməsi;

Beşinci – Azərbaycanda azad rəqabətin dövlət tərəfindən tənzimlənməsi və qorunması;

Altıncı – işsizlərin sayının minimum həddə çatdırılmasını qarşısına məqsəd qoyan məşğulluq siyasətinin, bu gün Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin tərkib hissəsi olmasıdır.

Bazar iqtisadiyyatının alman modelinin azərbaycanda tətbiq edilməsinin ən mühüm arqumentlərindən biri, Almaniyada da bizdə olduğu kimi, sosial-iqtisadi inkişafın mərkəzləşdirilmiş təsərrüfatdan sosial yönümlü bazar təsərrüfatına doğru irəliləyişidir. Beləliklə, bizim ölkənin şəraitiüçün daha müvafiq və daha əlverişli bazar iqtisadiyyatı modeli, sosial yönümlü bazar iqtisadiyyatı modeli ola bilər.

## Azərbaycanın beynəlxalq iiqtisadi təşkilatlarla münasibəti

Azərbaycan Respublikasının xarici iqtisadi münasibətlərinin əsas xüsusiyyəti beynəlxalq,regional və yerli xarakterli iqtisadi təşkilatlara daxil olmaq və bununla da ictimai həyatın bütün sahələrində bu təşkilatlara inteqrasiya olunmaqdır.Müstəqillik bərpa etdikdən sonra (1991,18 oktyabr) Azərbaycanın ilk əməkdaşlıq münasibətləri əldə etdiyi beynəlxalq iqtisadi təşkilatlar aşağıdakılardır.İslam Konfransı Təşkilatı(1991, 8 dekabr); İqtisadi Əməkdaşlıq Təşkilatı (1992, fevral); Beynəxalq Valyuta Fondu və Beynəlxalq yenidən qurma və inkişaf Bankı (1992); Qara dəniz iqtisadi Əməkdaşlıq Təşkilatı (1993); Ümumdünya  Ticarət Təşkilatı (1993): Müstəqil Dövlətlə birliyi (1993) Avropa Şurası ( 2001-ci il, 25yanvar)

Azərbaycan dünyanın müsəlman respublikalarından biri olduğu üçün bir neçə islam təşkilatlarına üzv olmuşdur.Bunlardan ən nüfuzlusu İKT-dır.İslam İnkişaf Bankı və İslam Həmrəylik Fondu ilə Azərbaycan Respublikasının milli iqtisadiyyatının 3 müxtəlif sahəsinə investisiya vəsaitləri və kapital qoyuluşları yatırmışlar.Belə ki, həmin investisiya vəsaitləri kənd təsərrüfatının inkişafı üçün əsasən meliorasiya və su təsərrüfatı sahəsinə yönəldilmişdir.Azərbaycan iqtisadi inkişaf naminə təşkilat olan GUAM (1997-ci il, 10 oktyabr) təşkilatının üzvü və yaradıcılarından biridir.Azərbaycan dövləti Qara dəniz İqtisadi Əməkdaşlığının (QİƏ) təsisçilərindən biridir.Azərbaycan Respublikası 1992-ci ildən Beynəlxalq Valyuta Fondunun və Beynəxalq Yenidən qurma və İnkişaf Bankının üzvüdür.BVF-nun Bakı şəhərində nümayəndəliyi fəaliyyət göstərir.